

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 30 (24.465)

9 avqust 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Tarixi səfər, diplomatik zəfər

## Vaşinqton görüşü: regional sülh və faydalı əməkdaşlıq üçün mühüm siyasi nailiyyət



Azərbaycanın çoxtərəfli əməkdaşlığın inkişafı, regionlararası sülhün, dialoqun təmini, münasibətlərin tənzimlənməsi kimi humanist prinsiplərə söykənən uzunmüddətli, praqmatik siyasi xətti Azərbaycan-ABŞ əlaqələri üçün də strateji əhəmiyyətli mühüm perspektivlər açır və xüsusilə hazırkı məqamda ölkəmizin Ağ ev administrasiyası ilə yaxınlaşmasında misilsiz tarixi addımlar atılmaqdadır. Bu mənada, Prezident İlham Əliyevin Birləşmiş Ştatların Prezidenti Donald Trampın rəsmi dəvəti ilə bu ölkəyə işgüzar səfəri həm Azərbaycan-ABŞ ikitərəfli münasibətləri baxımından, həm də regional sabitlik və qlobal təhlükəsizlik kontekstində xüsusi əhəmiyyətə malikdir.

Donald Trampın hakimiyyət illəri 33 ildən artıq tərəfdaşlıq tarixi olan Azərbaycan-ABŞ münasibətlərinin inkişafında mühüm mərhələ təşkil edir. Bu baxımdan, Tramp administrasiyasının birinci dönəmi respublikamızla siyasi, iqtisadi, humanitar yaxınlaşmasında ilkin raund kimi dəyərləndirilə bilər. Azərbaycanın irəli sürdüyü təşəbbüslərin, xüsusilə Avropanın etibarlı enerji təminatında əhəmiyyətli rol oynayan Cənub Qaz Dəhlizi layihəsinin reallaşması üçün ABŞ-nin dəstəyi əlaqələrin ilk raundda inkişafının real göstəricisidir.

Səhifə ➡ 2

## Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Elektrik enerjisi sisteminin, o cümlədən paylayıcı elektrik şəbəkəsinin müasirləşdirilməsi və innovativ texnologiyaların tətbiqi əsasında təkmilləşdirilməsi ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə ölkəmizdə bu sahədə həyata keçirilən ardıcıl islahatlar enerji sisteminin idarə edilməsi və inkişafı fəlsəfəsində keyfiyyət dəyişikliyinə zəmin yaratmış, elektrik enerjisi ilə istehlakçıların daha etibarlı, davamlı, təhlükəsiz və səmərəli təchizatına xidmət etmişdir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da iqtisadi inkişafın davamlılığının təmin edilməsi ilə bağlı görülən işlər, öz növbəsində, kommunal infrastrukturun, o cümlədən paylayıcı elektrik şəbəkəsinin keyfiyyətinin yüksəldilməsini, əhalinin fasiləsiz və təhlükəsiz enerjiyə çıxışını əsas prioritetlərdən birinə çevirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında paylayıcı elektrik şəbəkəsinin dayanıqlılığının təmin edilməsi, bu sahədə infrastrukturun daha da yaxşılaşdırılması, istehlakçıların enerji təchizatının səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra – Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).

2. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin və icranın gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə növbəti illərdə dövlət büdcəsi layihələrində tələb olunan maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsün;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 avqust 2025-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026-2030-cu illər üçün Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | İcraçı qurum | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **1. 110 və 35 kV-luq yarımstansiyaların yenidən qurulması və elektrik verilişi xətlərinin çəkilməsi** | | | |
| 1.1 | 110/35/10 kV-luq "Koroğlu" yarımstansiyasının yenidən qurulması, "Azərişıq" ASC-nin yeni inzibati binasının və idarəetmə mərkəzinin tikintisi | "Azərişıq" ASC | 2026 |
| 1.2 | 35/10 kV-luq "Nəzərabad" yarımstansiyasının yerinin dəyişdirilərək yenidən qurulması | "Azərişıq" ASC | 2026 |
| 1.3 | 110/35/10 kV-luq "Sədərək" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.4 | 35/10 kV-luq "Sədərək" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.5 | 35/10 kV-luq "Əbrəqunus" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.6 | 35/10 kV-luq "Qarabağlar" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.7 | 35/10 kV-luq "Qışlaq" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.8 | 35/10 kV-luq "Cəhri" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.9 | 110/35/10 kV-luq "Şərur" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.10 | 35/10 kV-luq "Düylün" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.11 | 35/10 kV-luq "Mahmudkənd" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.12 | 35/10 kV-luq "Sənaye qovşağı" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.13 | 35/10 kV-luq "Parağaçay" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.14 | 35/10 kV-luq "Sələsüz" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.15 | 35/10 kV-luq "Hava Limanı" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.16 | 35/10 kV-luq "Xətai" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2029 |
| 1.17 | 35/10 kV-luq "Xanlıqlar" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2029 |
| 1.18 | 35/10 kV-luq "Nehrəm" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2029 |
| 1.19 | 35/10 kV-luq "Keçili" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2030 |
| 1.20 | 35/10 kV-luq "Hərbi hissə" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2030 |
| 1.21 | 110 və 35 kV-luq elektrik verilişi xətlərində yenidənqurma işlərinin aparılması | "Azərişıq" ASC | 2026-2030 |
| **2. 6-10 kV-luq və 0,4 kV-luq elektrik şəbəkələrində yenidənqurma işlərinin aparılması** | | | |
| 2.1 | Naxçıvan şəhəri ərazisində, Babək, Şahbuz, Sədərək, Culfa, Kəngərli, Ordubad və Şərur rayonlarında istismar müddəti bitmiş transformator məntəqələrinin yenidən qurulması | "Azərişıq" ASC | 2026-2030 |
| 2.2 | Naxçıvan şəhəri ərazisində, Babək, Şahbuz, Sədərək, Culfa, Kəngərli, Ordubad və Şərur rayonlarında 6-10 kV-luq elektrik verilişi xətlərində yenidənqurma işlərinin aparılması | "Azərişıq" ASC | 2026-2030 |
| 2.3 | Paylayıcı elektrik şəbəkələrində itkilərin azaldılması məqsədilə 0,4 kV-luq elektrik şəbəkəsinin özüdaşıyan izolyasiyalı naqillərlə yenidən qurulması | "Azərişıq" ASC | 2026-2030 |
| **3. Elektrik şəbəkələrində qəza hallarının aradan qaldırılması, SCADA (şəbəkələrin real vaxt rejimində avtomatik idarə olunması) sisteminin qurulması və elektrik sayğaclarının dəyişdirilməsi** | | | |
| 3.1 | Yarımstansiyaların uzaqdan idarə edilməsi üçün SCADA (şəbəkələrin real vaxt rejimində avtomatik idarə olunması) sisteminin qurulması | "Azərişıq" ASC | 2026-2030 |
| 3.2 | Naxçıvan Muxtar Respublikasının ərazisində istismar müddəti keçmiş elektrik sayğaclarının dəyişdirilməsi məqsədilə nəzarət və ölçü cihazlarının alınması və quraşdırılması | "Azərişıq" ASC | 2026-2030 |
| 3.3 | Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin maddi-texniki təchizatının möhkəmləndirilməsi | "Azərişıq" ASC | 2026-2030 |

(əvvəli 1-ci səhifədə)

Trampın ikinci prezidentliyi dövrü isə cərəyan edən hadisələrin timsalında göründüyü kimi, Vaşinqtonun Cənubi Qafqaz siyasətində Azərbaycan diplomatiyasının rolunu daha da ön plana çıxarır. Enerji təhlükəsizliyi, regional sabitlik və antiterror əməkdaşlığı kimi sahələrdə qarşılıqlı maraqların artması Azərbaycan-ABŞ münasibətlərinin yaxın gələcəkdə daha dərin və qarşılıqlı etimada əsaslanan bir platformaya çevriləcəyinin mesajıdır. Avqustun 8-də Ağ evdə baş tutan görüşlərin, dialoqların detallarına toxunmadan öncə ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyinə dair son bir ildə yaşanan tarixi məqamlara diqqəti çəkmək olar: Prezident İlham Əliyevin 2024-cü ilin yayında Şuşada təşkil olunan Qlobal Media Forumunda ABŞ-da keçiriləcək prezident seçkilərinə dair suala cavab verərkən Donald



# Tarixi səfər, diplomatik zəfər

## Vaşinqton görüşü: regional sülh və faydalı əməkdaşlıq üçün mühüm siyasi nailiyyət

Tramp haqqında səsləndirdiyi müsbət fikirlərlə strateji baxışını və Vaşinqtonda baş verən siyasi proseslərə obyektiv yanaşmasını nümayiş etdirməsi. Donald Trampın yenidən prezident seçilməsindən sonra iki lider arasında baş tutan telefon danışığı və məktub mübadiləsi. ABŞ liderinin Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündəki çıxışından paylaşımı...

Sadaladığımız siyasi hadisələrin məntiqi davamı kimi Prezident İlham Əliyevin ABŞ səfəri, səfər çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər, ilk növbədə, məhz qeyd etdiyimiz Bakı-Vaşinqton siyasi təmaslarının daha da dərinləşdiyini və münasibətlərin yüksək mərhələyə, faydalı əməkdaşlıq səviyyəsinə daşındığını göstərir. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Ermənistan Baş naziri Nikol Paşinyanla keçirilən üçtərəfli görüşdə də sözügedən məqama toxunaraq Azərbaycan-ABŞ münasibətlərinin hazırkı dönəmini yüksək qiymətləndirdi: ***"İlk növbədə, dəvətə görə minnətdaram. ABŞ Prezidentinin dəvətini qəbul edərək burada iştirak etmək böyük şərəfdir. Biz, həqiqətən də, yeni tarixi səhifəyə imza atırıq. Eyni zamanda ABŞ və Azərbaycan arasındakı ikitərəfli münasibətlər yeni pilləyə qalxır və bizim strateji tərəfdaşlığımız artıq başlayır. Bu istiqamətdə bir neçə ay ərzində sənədlər və bütün mətnlər hazırlanacaq. Azərbaycan üçün bu, tarixi nailiyyətdir. Çünki bu gün strateji tərəfdaşlıq kontekstində dünyanın ən böyük ölkəsi ilə əlaqələr qurulur. Əlbəttə ki, bu həm böyük imkan, eyni zamanda böyük öhdəlik və məsuliyyətdir"***.

### *Birgə bəyannamə: sülhə uzanan birgə əl, əməkdaşlığa açılan vahid qapı*

Bir neçə gündür, bütün dünyanın səbirsizliklə gözlədiyi həmin tarixi gün, tarixi məqam, nəhayət ki, yetişdi. Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında avqustun 8-də Ağ evdə baş tutan həm ikitərəfli, üçtərəfli görüşlər, həm də imzalanan sənədlər sülhə uzanan birgə əl, regional və beynəlxalq əməkdaşlığa açılan vahid qapı rolunu oynayır desək, yanılmarıq.

Tarixi Vaşinqton razılaşması-nı, birinci növbədə, Azərbaycan-ABŞ münasibətləri üçün əvvəllər mümkünsüz görünən nailiyyətlərin əldə olunması baxımından əlamətdar siyasi hadisə kimi səciyyələndirmək olar. Bu mənada, ilk diqqətçəkən məqam zaman-zaman gündəmə gətirilən və ölkələrarası münasibətlərə ciddi xətər yetirən, respublikamıza dövlət yardımı qadağasını nəzərdə tutan 907-ci düzəlişin ləğv edilməsidir. Bunula da liderlər Azərbaycan-ABŞ münasibətləri tarixində yeni səhifə açdılar. Ağ evdə mövcud olan anti-Azərbaycan siyasətinin üzərindən birdəfəlik xətt çəkilərək faydalı əməkdaşlıq, strateji tərəfdaşlıq yoluna qədəm qoyuldu. Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanması isə ölkələrarası əməkdaşlığın strateji formata keçdiyini rəsmi şəkildə təsdiqlədi. Beləliklə, 907-ci düzəlişin ləğvi və bu memorandum əsasında hazırlanacaq Strateji Tərəfdaşlıq Xartiyası ilə ABŞ-nin respublikamızla əvvəllər mövcud olan antiəməkdaşlıq səddi tamamilə aradan götürülərək qarşılıqlı sərmayələr, ticarət, enerji, rabitə, tranzit, süni intellekt, müdafiə təyinatlı məhsulların satışı, terrorizmlə mübarizəyə dair yeni iqtisadi münasibətlər sistemi yaranacaq. Mətbuata birgə bəyanatda Prezident İlham Əliyev strateji tərəfdaşlığı böyük imkan və böyük məsuliyyət kimi dəyərləndirib. Sitat: ***"Strateji tərəfdaşlıq formatı bir çox sahəni əhatə edir – qarşılıqlı investisiya, ticarət, rabitə, süni intellekt, tranzit, eyni zamanda müdafiə sahəsi, terrorçuluğa qarşı mübarizə və digər sahələr də buraya daxildir. Ümid edirik ki, bu və digər sahələrdə çox fəal şəkildə əməkdaşlığa imza atacağıq. Böyük imkanlar, fürsətlər açılır. Azərbaycan bu istiqamətdə inkişaf edəcək, ölkənin iqtisadiyyatını şaxələndirəcəyik və bu gün də olduğu kimi, işsizliyi daha da azaldacaq, eyni zamanda gələcəyə böyük nikbinliklə baxacağıq"***.

Ağ evdə Donald Trampın şahidliyi əsasında imzalanan Azərbaycan və Ermənistan birgə bəyannaməsi, sülh sazişinin paraflanması isə bu iki ölkə arasında uzun illərdir, davam edən münaqişənin, müharibənin bitməsini göstərən davamlı sülhün təmini üçün siyasi nailiyyətdir. 7 müddəanın yer aldığı bəyannamə, böyük mənada, respublikamız tərəfindən illərdir, ortaya qoyulan iradənin təsdiqi, dönməz qətiyyətin, sarsılmaz mövqeyin, mühüm təşəbbüslərin birmənalı dəstəklənməsidir. Və bütün bunların fonunda Ağ ev razılaşması Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsindən sonra qazandığı ən böyük diplomatik zəfər, siyasi uğurdur. Bəli, dünyanın əsas güc mərkəzlərindən sayılan Vaşinqtonda Ermənistan tərəfi Prezident İlham Əliyevin Azərbaycan-Ermənistan sülh sazişi üçün irəli sürdüyü iki legitim şərtindən birincisinin yerinə yetirilməsini açıq şəkildə qəbul-landı, bəyan etdi. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalanması ilə iki ölkə arasında sülh gündəliyinə mənfi təsir göstərən əsas maneələrdən biri aradan götürüldü.

Ağ evdə əldə olunan və Azərbaycan diplomatiyasının tarixi nailiyyəti hesab edilən razılaşmalardan biri, bəlkə də, elə birincisi Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər ərazisini birləşdirəcək kommunikasiyaların açılmasını nəzərdə tutur. Beləliklə, Ermənistan öz ərazisindən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəyini təsdiqləməklə, əslində, elə Prezident İlham Əliyevin ***"Zəngəzur dəhlizi mütləq açılmalıdır, Azərbaycandan Azərbaycana maneəsiz keçid təmin olunmalıdır"*** ideyasını da təsdiqlədi. Bəli, uzun illərdir, davam edən haqsızlığa, xalqımıza qarşı yönəlmiş tarixi ədalətsizliyə son qoyulur, Naxçıvandan ölkəmizin digər ərazisinə quru yolla maneəsiz gediş-gəliş şəraiti yaradılır. Bu yol inkişaf, tərəqqi yoludur. Bu yol region ölkələrinin ticarət əlaqələrini möhkəmləndirərək iqtisadi gücə qovuşduracaq beynəlxalq nəqliyyat marşrutudur. Zəngəzur dəhlizi Asiya ilə Avropa arasında tranzit daşımaların həyata keçirilməsi üçün vaxta, yanacağa qənaət baxımından ən optimal, sərfəli yoldur. Bu addım Böyük İpək Yolunun bərpasına xidmət edir və Naxçıvanın tarixi missiyasını yenidən qazanmasına şərait yaradır. Zəngəzur dəhlizinin açılması ölkəmizin bu qədim diyarının turizm potensialının gücləndirilməsi, burada xarici sərmayədarların yatırımları hesabına yeni müəssisələrin yaradılmasına, ixrac imkanlarının artırılmasına güclü təkan verəcək. Beləliklə, yaxın vaxtlarda reallaşdırılacaq bu mühüm tranzit layihə həm region ölkələrinə, həm də Azərbaycana böyük maliyyə vəsaiti gətirəcək, əhalinin məşğulluğu təmin olunacaq, rifah hal xeyli yaxşılaşacaq.

### *Donald Tramp: "Azərbaycan xalqı böyük xalq, İlham Əliyev böyük liderdir"*

Əbədi, tarixi zəfər təkcə döyüş meydanında deyil, həm də siyasi arenada qazanılır. Bu baxımdan, Azərbaycanın qələbəsi ona görə böyük qələbədir ki, Prezident İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi həm döyüş meydanında, həm də qətiyyətli siyasi lider olaraq masada qalib oldu. Avqustun 8-də Ağ evdə Azərbaycan diplomatiyasının zəfərini göstərən, sübut edən təkcə imzalanan dövlət sənədləri, əldə olunan razılaşmalar deyil, həm də jestlər, mimikalar idi. Bəli, dünyanın "super gücü"nün başında duran şəxsin Prezident İlham Əliyevə olan hörməti, ehtiramı hər addımda, hər davranışda hiss olunurdu. Azərbaycanla ABŞ arasında Anlaşma Memorandumunun imzalanması mərasimində Donald Trampın ölkə başçımıza dediyi "Siz böyük lidersiniz", "Xalqınız böyük xalqdır" sözləri təsadüfi fikirlər deyil, siyasi xarizmaya bəslənilən hörmət, dönməz iradəyə, qətiyyətli diplomatiyaya güclü rəğbət idi. ABŞ rəhbərinin 907-ci düzəlişin ləğvinə şəxsən Azərbaycan liderinin iştirakı ilə imza atması, Ağ evin rəmzi açarını Prezident İlham Əliyevə təqdim etməsi xalqımızı, ölkəmizi gözü götürməyən təxribatçı siyasi dairələrə, dövlətlərə tutarlı cavab, siyasi sillə oldu desək, tam yeridir.

Prezident İlham Əliyevin ABŞ-yə tarixi səfəri, Azərbaycan dövlətinin Vaşinqtonda qazandığı diplomatik zəfərin təntənəsi hələ uzun illər yaddaşlardan silinməyəcək. Bu siyasi nailiyyət Vətən müharibəsinin məntiqi davamı kimi, respublikamızın müzəffər respublika, xalqımızın müzəffər xalq olduğunu bütün dünyaya sübut edən başlıca göstəricidir, mühüm faktordur. Cənubi Qafqazın lideri Azərbaycanın dünyanın lideri ABŞ ilə strateji tərəfdaşlıq yoluna qədəm qoyması isə, sözün həqiqi mənasında, misli görünməmiş uğurdur. Ümumilikdə, Vaşinqtonda keçirilən görüşlər, dialoqlar, imzalanan sənədlər, əldə olunan razılaşmaların məğzinə varıb, mahiyyətini dərk edərək səfərin nəticələrinin Azərbaycanın milli maraqlarına tam şəkildə uyğunluğu böyük məmnunluq doğurur fikrini qətiyyətlə söyləmək olar. Prezident İlham Əliyevin Azərbaycanın media nümayəndələrinə müsahibəsində də dediyi kimi: ***"Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır. Əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün ABŞ ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir"***.

**Nail ƏSGƏROV**

# Sülh prosesində tarixi gün

## Prezident İlham ƏLİYEV:

*“Bu gün, həqiqətən də, tarixi bir gündür. Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik. Bu, nəinki bizim bölgəmiz, eyni zamanda bütün dünya üçün böyük bir imkandır.”*



## Naxçıvan dünyanın diqqətində

*Naxçıvan üçün yeni dövrün başlanğıcı*

Avqustun 8-də Vaşinqtonda Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında imzalanan “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsi və ona əlavə olunan Birgə Bəyannamə region üçün tarixi dönüş nöqtəsi oldu. Bu sənəd illərlə davam edən gərginlik və blokadadan sonra Naxçıvan Muxtar Respublikası üçün yeni imkanların qapısını açır.

*Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında birləşdirici körpü*

Bəyannaməyə əsasən Azərbaycanla Naxçıvan arasında Ermənistan ərazisindən keçən multimodal tranzit koridoru yaradılacaq. Bu marşrut yalnız avtomobil yolu deyil, həm də dəmiryolu, enerji xətləri, qaz kəmərləri və optik lif kabellərini əhatə edəcək. Beləliklə, Naxçıvan uzun illərdən sonra Azərbaycanla fasiləsiz və təhlükəsiz şəkildə birləşdiriləcək.

Yeni tranzit yolunun inşası və idarə olunması ABŞ-ya məxsus bir şirkətə veriləcək. Bu addım həm Ermənistanın suverenliyini təmin edir, həm də marşrutun beynəlxalq zəmanətlə işləməsini mümkün edir.

*İqtisadi və geosiyasi üstünlüklər*

Naxçıvan üçün bu koridor təkcə nəqliyyat imkanı deyil, həm də iqtisadi inkişaf üçün mühüm vasitə olacaq. Açılacaq yollar ticarətin həcmini artıracaq, enerji və rəqəmsal kommunikasiya imkanlarını genişləndirəcək. Ermənistan isə bu tranzitdən gəlir əldə edə, enerji mənbələrinə çıxışını asanlaşdıra bilər.

Bu addım həm də regionun geosiyasi balansını dəyişəcək. ABŞ-nin bu layihədə iştirakı Rusiya və İranın təsirini azaldacaq, Qafqazda yeni diplomatik və iqtisadi əməkdaşlıq mühiti yaradacaq.

*Köhnə formatlara son*

Vaşinqton sənədində yer alan mühüm məqamlardan biri də Azərbaycan və Ermənistanın ATƏT-in Minsk Qrupu formatını rəsmi olaraq bitirmək üçün müraciət etməsidir. Bu, illərdir, nəticə verməyən danışıqlar mərhələsinin sona çatması və sülh prosesinin yeni, real mexanizmlərlə davam etdirilməsi deməkdir.

*Naxçıvanı nə gözləyir?*

*Maneəsiz əlaqə:* Azərbaycanın əsas hissəsi ilə birbaşa, fasiləsiz və təhlükəsiz nəqliyyat yolu.

*İnfrastruktur sıçrayışı:* yeni yollar, dəmiryolları, enerji xətləri və rəqəmsal bağlantı.

*İqtisadi yüksəliş:* ticarət və turizm imkanlarının artması, yerli istehsalın ixrac potensialının gücləndirilməsi.

*Regional sülhün möhkəmlənməsi:* uzunmüddətli sabitlik və əməkdaşlıq üçün zəmin.

Vaşinqton Bəyanatı Naxçıvan üçün, sadəcə, tranzit dəhlizi deyil, həm də böyük geosiyasi və iqtisadi inteqrasiyaya açılan qapıdır. Bu sənəd illərin blokadasından sonra muxtar respublikanın regional inkişaf xəritəsində önəmli bir mövqeyə yüksələcəyini göstərir.

**Rauf CƏFƏROV**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı**

## Müharibənin qalibi, sülhün banisi

“Avqustun 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən üçtərəfli görüş Cənubi Qafqaz tarixində mühüm dönüş nöqtəsi oldu. Görüşün nəticəsi olaraq imzalanan Birgə Bəyannamə iki ölkə arasında sülh sazişinin reallaşması istiqamətində ən ciddi addım kimi dəyərləndirilir”.

Bu sözləri “Şərq qapısı”na açıqlamasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Xəzəngül Orucova deyib.

Deputat bildirib ki, Prezident İlham Əliyev təkcə müharibənin qalibi deyil, həm də sülh gündəliyinin banisidir. Onun sözlərinə görə, Vaşinqton görüşündə nümayiş olunan prinsipial mövqe və imzalanan sənəd regionda ədalət, qarşılıqlı hörmət və bərabərlik prinsiplərinə əsaslanan yeni siyasi reallıqların formalaşmasına zəmin yaratdı: “Sənədə əsasən Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində “Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsini paraflayıb, ratifikasiyası üçün işlərin davam etdirilməsi barədə razılığa gəliblər. Tərəflər, həmçinin ATƏT-in Minsk Qrupu və onun strukturlarının fəaliyyətinin dayandırılması üçün birgə müraciət qəbul ediblər. Görüşdə nəqliyyat kommunikasiyalarının açılması və xüsusilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin olunması vurğulanıb. ABŞ-nin dəstəyi ilə “Trump Route for International Peace and Prosperity” (TRIPP) adlanan Zəngəzur dəhlizi üzrə beynəlxalq tranzit layihəsinin həyata keçirilməsinə start verilməsi də bəyannamədə öz əksini tapıb”.

“Vaşinqton görüşündə atılan bu addım təkcə Azərbaycan-Ermənistan münasibətlərində deyil, bütövlükdə, Cənubi Qafqazın gələcəyində sabitlik, əməkdaşlıq və inkişaf üçün möhkəm təməl yaratdı. Müharibədə qazanılmış qələbə indi sülh masasında möhkəmləndirilir və bu, Prezident İlham Əliyevin siyasi iradəsinin, diplomatik məharətinin ən bariz nümunəsidir. Vaşinqtonda imzalanan Birgə Bəyannamə ilə Azərbaycan bir daha həm qalib dövlət, həm də regionun sülh və sabitlik platformasının lideri olduğunu dünyaya nümayiş etdirdi”, – deyə Xəzəngül Orucova vurğulayıb.

## Gözün aydın, Naxçıvan!

### *Zəngəzura bir addım*

Bu gün Naxçıvanın gözü işıqlı, nəfəsi rahatdır. İllərdir, sərhədlərin arxasında qalan, Vətəninə qovuşmaq üçün yol gözləyən qədim diyarımız bu müjdəni ən böyük sevinc kimi qarşılayır: Zəngəzur dəhlizi açılır!

Vaşinqtonda imzalanan tarixi sənədlər Azərbaycan diplomatiyasının parlaq qələbəsidir. Cənab Prezident İlham Əliyevin qətiyyətli mövqeyi və milli maraqlarımızdan geri addım atmayan siyasəti nəticəsində rəsmi İrəvan Azərbaycanın şərtlərini qəbul etdi. Etməyə bilməzdi.

Artıq Naxçıvana gediş-gəliş tam maneəsiz təmin olunacaq. 42 kilometrlik dəmir yolunun çəkilişi və bütün infrastruktur xərcləri ABŞ tərəfindən ödəniləcək. Bu təkcə yolun açılması deyil – bu, illərin ayrılığının bitməsi, ruhların, qəlblərin qovuşmasıdır. Bu, düzgün müəyyənləşdirilmiş, sabaha hesablanmış siyasətin yeni qələbəsi və 2020-ci ildə qazanılmış zəfərin məntiqi davamıdır.

Vaşinqton görüşündə əldə olunan razılaşmalara əsasən:

Azərbaycan və Ermənistan arasında birgə bəyanat imzalandı;

Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçən hissəsinin açılması barədə Memorandum qəbul olundu;

Sülh sazişinə gedən yol xəritəsi razılaşdırıldı;

Ermənistan ATƏT-in Minsk Qrupundan imtina etdi.

Bu, tarixə qızıl hərflərlə yazılacaq bir gündür. Çünki bu dəhliz təkcə Naxçıvanın deyil, bütöv Azərbaycanın nəfəs yolu, iqtisadi gücünün artması, Türk dünyasına qapının geniş açılması deməkdir. Gözləyirdik və gördük. Çünki bu torpaq bizimdir. Bu yol bizimdir. Bu tarix bizimdir.

Və bu yolun sonunda bir Lider dayanır – sözündə, əməlində, qərarında dəmir kimi möhkəm olan Ali Baş Komandan. Qarabağı azad edən iradə, bu yolun da açarını daşıyır. Biz onu tanıyırıq. Biz ona güvənirik.

O, hər zaman deyirdi: “Biz istədiyimizə nail olacağıq”. Və biz inanırdıq – necə ki Şuşaya bayraq sancıldısa, bu yol da bir gün bütöv Azərbaycanın nəfəs yolu olacaq. Səngərlər təkcə torpaqda yox, ürəklərdə də qazılır. Bu iradə, bu ruh, bu birlik heç kimə və heç nəyə uduzmaz.

Biz hazırıq. Biz inanırıq. Biz güvənirik.

Bu yol bizim olacaq.

Bu Qələbə yenə bizim olacaq.

Və Naxçıvan artıq gözləmir. Naxçıvan çağırır.

Gözün aydın, Naxçıvan! Artıq Vətənə yolun açıqdır…

**Sara ƏZİMOVA**
***“Şərq qapısı” qəzetinin baş redaktoru***

## R.X.Xudiyevin Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**
Rəşad Xəlil oğlu Xudiyev Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 5 avqust 2025-ci il*

## Naxçıvan Muxtar Respublikasında ipoteka sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti "Naxçıvan İpoteka Fondu" qeyri-kommersiya hüquqi şəxsinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Naxçıvan İpoteka Fondu (bundan sonra – Fond) "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisidir və onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Fonda keçir;

2.2. Fond Naxçıvan Muxtar Respublikasında əhalinin yaşayış sahəsi ilə uzunmüddətli ipoteka kreditləşməsi vasitəsilə təmin edilməsi mexanizminin yaradılması, ipoteka kreditləşməsinə maliyyə resurslarının cəlb olunmasına köməklik göstərilməsi ilə bağlı işləri yerinə yetirən qeyri-kommersiya hüquqi şəxsidir.

3. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

3.1.2. Fondun icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

3.1.3. Fondun yenidən təşkili və ləğvi barədə qərarın qəbul edilməsi;

3.2. Fonda:

3.2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Fondun strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi;

3.2.2. bu Fərmanın 3.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

4.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə dörd ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

4.4. Fondun nizamnaməsinin təsdiqini və "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının məbləği həcmində nizamnamə kapitalının formalaşdırılmasını bir ay müddətində təmin etsin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 8 avqust 2025-ci il*

## Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "N-Telekom" publik hüquqi şəxsin və "Naxçıvanpoçt" publik hüquqi şəxsin yenidən təşkili haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "N-Telekom" publik hüquqi şəxsin və "Naxçıvanpoçt" publik hüquqi şəxsin yenidən təşkili məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində "N-Telekom" publik hüquqi şəxsi "Naxçıvan Telekom" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməklə yenidən təşkil edilsin.

2. "Naxçıvan Telekom" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra – Naxçıvan Telekom) ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

2.1.1. Naxçıvan Telekomun yenidən təşkili və ləğv edilməsi;

2.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə:

2.2.1. Naxçıvan Telekomun nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, tabeliyindəki hüquqi şəxs statuslu qurumların yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

2.3. Nazirliyə:

2.3.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Naxçıvan Telekomun icra orqanının rəhbərinin və onun müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.3.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, Naxçıvan Telekomun nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.3.3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Naxçıvan Telekomun strukturunun, işçilərinin say həddinin və əməkhaqqı sisteminin müəyyən olunması;

2.3.4. Naxçıvan Telekomun xərclər smetasının təsdiq edilməsi;

2.3.5. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Naxçıvan Telekomun tabeliyində hüquqi şəxs statuslu qurumların (törəmə və asılı cəmiyyətlərin) yaradılması, yenidən təşkili və ya ləğv edilməsi;

2.3.6. Naxçıvan Telekomun icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.3.7. Naxçıvan Telekomun müşahidə şurasının seçilməsi və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.3.8. Naxçıvan Telekomun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

2.3.9. Naxçıvan Telekomun illik hesabatlarının və maliyyə hesabatlarının təsdiq edilməsi, onun mənfəətinin və zərərinin bölüşdürülməsi;

2.3.10. Naxçıvan Telekomun xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Naxçıvan Telekomun aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

2.3.11. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Naxçıvan Telekomun nümayəndəlik və filiallarının yaradılması və ya ləğv edilməsi;

2.3.12. bu Fərmanda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

3. Nazirliyin tabeliyində "Naxçıvanpoçt" publik hüquqi şəxsi "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinə (bundan sonra – Naxçıvanpoçt) çevrilməklə yenidən təşkil edilsin.

4. Naxçıvanpoçtun ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

4.1.1. Naxçıvanpoçtun yenidən təşkili və ləğv edilməsi;

4.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə:

4.2.1. Naxçıvanpoçtun nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, tabeliyindəki hüquqi şəxs statuslu qurumların yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

4.3. Nazirliyə:

4.3.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Naxçıvanpoçtun icra orqanının rəhbərinin və onun müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.3.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, Naxçıvanpoçtun nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.3.3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Naxçıvanpoçtun strukturunun, işçilərinin say həddinin və əməkhaqqı sisteminin müəyyən olunması;

4.3.4. Naxçıvanpoçtun xərclər smetasının təsdiq edilməsi;

4.3.5. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Naxçıvanpoçtun tabeliyində hüquqi şəxs statuslu qurumların (törəmə və asılı cəmiyyətlərin) yaradılması, yenidən təşkili və ya ləğv edilməsi;

4.3.6. Naxçıvanpoçtun icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

4.3.7. Naxçıvanpoçtun müşahidə şurasının seçilməsi və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

4.3.8. Naxçıvanpoçtun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

4.3.9. Naxçıvanpoçtun illik hesabatlarının və maliyyə hesabatlarının təsdiq edilməsi, onun mənfəətinin və zərərinin bölüşdürülməsi;

4.3.10. Naxçıvanpoçtun xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Naxçıvanpoçtun aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

4.3.11. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Naxçıvanpoçtun nümayəndəlik və filiallarının yaradılması və ya ləğv edilməsi;

4.3.12. bu Fərmanda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təklifləri iki ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin.

6. Nazirlik:

6.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində Naxçıvan Telekomun və Naxçıvanpoçtun nizamnamələrini təsdiq etsin, ilkin nizamnamə kapitallarının formalaşdırılmasını təmin etsin və fəaliyyətlərinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etsin;

6.2. Naxçıvan Telekomun və Naxçıvanpoçtun dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 8 avqust 2025-ci il*

# Azərbaycanın enerji diplomatiyası yeni coğrafiyaya doğru

## Suriyaya qaz nəqli regional sabitliyə və rifaha xidmət nümunəsidir

***Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində 31 il bundan öncə, 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin bağlanması ilə əsası qoyulan Azərbaycanın enerji strategiyası ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, TANAP, TAP, Cənub Qaz Dəhlizi kimi layihələrlə daha da genişlənərək mühüm geostrateji əhəmiyyətə malik olub. Nəticə etibarilə hazırda Avropanın etibarlı enerji təchizatçısına, enerji təhlükəsizliyinin təminatçısına çevrilən respublikamız sözügedən sahədə irəli sürdüyü təşəbbüslərlə nəinki uzaq coğrafiyaları yaxınlaşdırır, yeni, faydalı əməkdaşlıqlara körpü salır, həm də regional sabitliyə və rifaha xidmət missiyasını uğurla yerinə yetirir. Bir neçə gün öncə, daha dəqiq desək, avqustun 2-də Türkiyə vasitəsilə Suriyaya mavi yanacaq nəqlinə başlanması da məhz bu mühüm amilə, humanitar prinsiplərə əsaslanır.***




Suriyaya mavi yanacaq nəqlinin siyasi, iqtisadi tərəflərinə toxunmadan öncə, təbii ki, Azərbaycanın müəllifi olduğu və bugünkü tarixi addımların atılmasına səbəbiyyət yaradan XXI əsrin, sözün həqiqi mənasında, meqa layihəsi sayılan Cənub Qaz Dəhlizinin enerji diplomatiyasındakı roluna diqqəti çəkmək lazımdır. Təməli “Əsrin müqaviləsi”nin 20 illiyi qeyd edilən gün – 2014-cü il sentyabrın 20-də qoyulan, 2018-ci il mayın 29-da rəsmi açılışı olan layihənin ümumi dəyəri 33 milyard ABŞ dollarıdır. ABŞ-nin dəstəyinin də reallaşmasında böyük payı olduğu CQD vasitəsilə respublikamız bu gün, Suriya da daxil olmaqla, ümumilikdə, 13 ölkəyə, o cümlədən də 10 Avropa ölkəsinə mavi yanacaq ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Bu baxımdan, təsadüfi deyildir ki, Aİ liderləri tərəfindən Azərbaycan “etibarlı tərəfdaş qaz təchizatçısı” kimi tanınır. 2022-ci il iyulun 18-də Azərbaycan və Avropa Komissiyası arasında “Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması da məhz Avropanın respublikamızın enerji diplomatiyasına olan möhkəm etibarının, böyük marağının əyani göstəricisidir. Azərbaycan tərəfindən təşəbbüslərin dəstəklənməsi nəticəsində yeni interkonnektorların da qoşulması ilə ötən iki-üç ildə qaz nəqlində əhəmiyyətli dərəcədə artıma nail olunub. Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 12,9 milyard kubmetr təşkil edib. 2025-ci ilin yanvar-iyun aylarında isə Azərbaycan 4 milyard 541 milyon 622,15 min ABŞ dolları dəyərində 12 milyard 364 milyon 984,82 min kubmetr həcmində təbii qaz ixrac edib. Hesabat dövründə ixrac edilən təbii qazın həcmi 2024-cü ilin ilk 6 ayı ilə müqayisədə 4,56, dəyəri isə 11,62 faiz çoxdur. Əldə edilən razılaşmaya əsasən 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır.

Bir qədər əvvəl də qeyd etdiyimiz kimi, artıq avqustun 2-dən etibarən Suriyaya da qaz nəqlinə başlanılıb və bu addım gələcəkdə coğrafi baxımdan enerji nəqli arealının daha da şaxələndirilməsinə imkan verəcək. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya hökuməti arasında bu yaxınlarda imzalanmış sənədə əsasən təbii qazın nəqli üçün artıq bütün texniki hazırlıqlar tamamlanıb. Layihənin ilk mərhələsində Suriyaya ildə 1,2 milyard kubmetr təbii qazın ixracı planlaşdırılır. Qaz Türkiyənin Kilis şəhəri vasitəsilə Hələb və Homsdakı elektrik stansiyalarına çatdırılacaq və elektrik enerjisi istehsalında istifadə olunacaq. Bu proses nəticəsində 1200-1300 meqavatlıq elektrik istehsalı gücünə nail olunması nəzərdə tutulur. Beləliklə, 14 illik vətəndaş müharibəsindən yenicə çıxmış bir ölkənin enerji infrastrukturunun bərpası, o cümlədən səhiyyə, nəqliyyat, təhsil sahələrində dirçəlişin əldə olunması üçün böyük fürsət yaranır. Bu baxımdan, Suriyaya qaz nəqli bir daha onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi enerji diplomatiyası təkcə iqtisadi səmərəliliyi ilə seçilmir, həm də özündə humanitar dəyərlər daşıyır. Sözügedən təşəbbüs, təbii ki, Azərbaycan-Suriya əlaqələrində də yeni səhifə açır. Məlum olduğu üzrə Suriyanın keçmiş hakimiyyəti ilə respublikamız arasında münasibətlər heç də ürəkaçan olmayıb. Vətən müharibəsi dövründə Bəşər Əsəd diktaturası Ermənistanın işğalçılıq mövqeyinə dəstəyini açıq şəkildə nümayiş etdirib, çirkin planların həyata keçirilməsi üçün əlindən gələn köməkliyi göstərib. Lakin Suriyadakı yeni hakimiyyətin Türkiyə ilə yaxınlığı, bu ölkənin bilavasitə Azərbaycanla da həm ikitərəfli, həm də üçtərəfli əlaqələr qurmasına səbəb olub. Prezident İlham Əliyevin cari il aprelin 11-də Antalya Diplomatiya Forumu çərçivəsində Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü, eləcə də iyul ayında Əhməd Əl Şaraanın ölkəmizə səfəri çərçivəsində aparılan danışıqlar da belə deməyə əsas verir ki, ölkələrimiz arasında əməkdaşlıqların inkişafının yeni perspektivləri görünməkdədir və yaxın gələcəkdə müxtəlif sahələr üzrə dialoqlar davamlı xarakter alaraq müsbət nəticələr verə bilər.

Əminliklə vurğulamaq olar ki, Suriyaya qaz nəqli Azərbaycan diplomatiyasının çevikliyindən xəbər verməklə enerji sahəsində yeni coğrafi xəritənin çəkilməsi baxımından olduqca mühüm nailiyyətdir. Belə ki, ölkəmiz gələcəkdə bu yeni qaz nəqli şəbəkəsi vasitəsilə Livan, İordaniya və Misirə də mavi yanacaq ixrac edə bilər. Bu addım, eyni zamanda regionda sabitlik, əmin-amanlıq yaratmaq baxımından dünyaya, Avropa ölkələrinə ünvanlanan ən təsirli mesajlardan biridir desək, yanılmarıq. Bakı-Ankara-Dəməşq faydalı dialoq və əməkdaşlıq platformasının qurulmasına geniş imkanlar açan sözügedən tarixi hadisə Azərbaycan dövlətinin verdiyi hər vədin, dediyi hər sözün arxasında dayandığını, cəsarətlə dayandığını göstərir. Prezident İlham Əliyevin cari ilin əvvəli, daha dəqiqi yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söylədiyi fikirlərlə bugünkü reallığın uzlaşması bunu bir daha sübut edir: ***“Türkiyənin Suriyanın inkişafındakı rolu, əlbəttə ki, çox əhəmiyyətlidir və mən Əsəd rejiminin çökməsindən sonra Prezident Rəcəb Tayyib Ərdoğana zəng edərək həm bu münasibətlə bir-birimizi təbrik etmişik, həm də bildirdim ki, biz də Türkiyənin yanında olmağa hazırıq və bunu etməyə də başlamışıq... Təbii ki, Türkiyənin bütün digər sərhədlərində də terrorçuluğa yer olmamalıdır. Biz də Türkiyənin müttəfiqi kimi hər zaman istənilən formada onların yanındayıq və bunu Türkiyə tərəfi bilir. Necə ki Türkiyə istənilən formada, hər bir məsələdə bizim yanımızdadır, biz də onun yanındayıq”.***

## Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun daha bir göstəricisi – “WUF13”

Respublikamızın dünya miqyasında artan rolu, nüfuzu Prezident İlham Əliyevin mötəbər tədbirlərə xüsusi qonaq, etibarlı dost, tərəfdaş qismində dəvəti ilə yanaşı, ayrı-ayrı şəhərlərimizin beynəlxalq əhəmiyyətli forum və konfranslara ev sahibliyinə layiq görülməsi ilə də səciyyələnir. Vətən müharibəsində qazanılan tarixi Zəfərlə Azərbaycanın ortaya qoyduğu siyasi iradə və qətiyyət bu baxımdan ölkəmizə bəslənilən etimad və hörməti daha da artırıb. Bunun ən bariz nümunələri sırasında ötən ilin noyabrında paytaxt Bakıda 196 ölkədən 72 min iştirakçının, 80 ölkə liderinin təmsilçiliyi ilə keçirilən və mühüm qərarların qəbul olunduğu COP29-u göstərmək olar. Azərbaycanın xarici və daxili siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin, diplomatiyasının xüsusi imic qazanmasının daha bir göstəricisi 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi statusunu qazanmasıdır.

Məlum olduğu üzrə, 2023-cü ildə Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Bakı şəhərinin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi etməsinə dair Saziş imzalanıb. Həmin sazişə əsasən ölkəmizin paytaxtı gələn il BMT-nin COP29-dan sonra ikinci ən böyük tədbirini keçirəcək. “WUF13”ün Azərbaycanda təşkilini şərtləndirən bir sıra əhəmiyyətli amillər və qazanılmış dərin təcrübə var. Təşəbbüs göstərən tərəfi düşündürən ən vacib məqam müxtəlif ölkələrdən təşrif buyuracaq qonaq sayının nəzərə alınması ilə, ilk növbədə, təbii ki, belə bir mötəbər tədbirin yüksək səviyyədə təşkili məsələsidir. Bu xüsusda onu qeyd etmək olar ki, Azərbaycan indiyə kimi Dünya İqtisadi Forumu, “IV İslam Həmrəyliyi Oyunları 2017”, “Avroviziya Mahnı Müsabiqəsi”, “Bakı-2015” Birinci Avropa Oyunları”, “Beynəlxalq Astronavtika Konqresi” və “Formula 1” kimi onlarla beynəlxalq səviyyəli tədbirlərin timsalında layiqli nümunə ortaya qoymağı bacarıb. Ən vacib nüans isə, sözsüz ki, ölkəmizdə şəhərsalma sahəsində qazanılan təcrübə və şəhər quruculuğu prosesində tarixlə müasirliyin düzgün vəhdətinin yaradılmasıdır. Bunu illərdir, Azərbaycana səfər edən həm rəsmi şəxslər, həm də turistlər Bakı, Naxçıvan, Gəncə kimi şəhərlərimizin timsalında ən xoş sözlərlə dilə gətirirlər.

Bu baxımdan, 30 il işğalçılıq siyasətinə, vandalizmə məruz qalan Qarabağ torpaqlarının müasir, ekoloji cəhətdən ən təmiz, sağlam, texnoloji baxımdan ən inkişaf etmiş üsullar, “yaşıl enerji”, “sıfır tullantı”, “ağıllı şəhər”, “ağıllı kənd” kimi ən yeni konsepsiyalar əsasında bərpası da tanınmış layihə institutları, o cümlədən Birləşmiş Millətlər Təşkilatının (BMT) Məskunlaşma Proqramının rəhbəri tərəfindən rəğbətlə qarşılanır. Məcburi köçkünlərin qayıdışı üçün ilk pilot layihə olan Zəngilan rayonunun Ağalı kəndi bu gün dünyanın ən müasir kəndləri sırasında bir nümunədir. Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı və Avropa İttifaqı ilə birlikdə bərpa və yenidənqurma ehtiyaclarının birgə dəyərləndirilməsi əsasında işğaldan azad olunan rayonlarımızda reallaşdırılan bərpa prosesində təqdirəlayiq hallardan biri də qeyd etdiyimiz kimi, müasirləşdirilmə ilə yanaşı, qədimliyin də qorunub yaşadılmasıdır. Belə ki, bütün şəhərlərin baş planları əraziyə xas tarixi-memarlıq irsinin və çoxəsrlik mədəni dəyərlərin qorunub saxlanılması nəzərə alınmaqla tərtib edilir.

Ümumdünya Şəhərsalma Forumunun əhəmiyyəti barədə onu da qeyd etmək lazımdır ki, BMT-nin 2001-ci ildə qəbul edilmiş müvafiq qərarına əsasən iki ildən bir dünya şəhərlərinin birində keçirilən bu forum urbanizasiyanın bütün aspektləri ilə məşğul olan minlərlə iştirakçıya şəhərlərin necə qurulduğu, planlaşdırıldığı və idarə edildiyi barədə təcrübə və biliklərini bölüşmək, fikir mübadilələri aparmaq üçün əlverişli şərait yaradır. “WUF13” bu baxımdan çoxşaxəli müxtəlif istiqamətlərdə bir çox alt tədbirlər vasitəsilə yeni çağırışlara vəsilə olacaq, tərəfdaşlıqlar üçün münbit zəmin hazırlayacaq. Tədbir çərçivəsində ayrı-ayrı ölkələrdən dövlət rəsmiləri, QHT-lər, bu sahədə fəaliyyət göstərən mütəxəssislər, ekspertlər, özəl sektor nümayəndələri bir araya gələcək, geniş fikir mübadiləsi əsasında yeni bilik və təcrübə əldə edəcəklər. Forum, təbii ki, şəhərsalma sahəsində innovativ ideyaları ortaya çıxarmaqla yanaşı, respublikamızda dinamik inkişaf mərhələsini yaşayan müxtəlif sahələrə xarici sərmayədarların cəlbi, turizm sektorunun inkişafı üçün geniş perspektivlər açacaq.

Onu da diqqətə çəkmək olar ki, BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı əsasında artıq ölkəmizdə bənzər iki forum keçirilib. 2022-ci ildə Ağdamda və 2023-cü ildə Zəngilan rayonlarında Azərbaycan Milli Şəhərsalma Forumu təşkil olunub ki, həmin tədbirlər şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan saha mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından uğurlu platforma rolunu oynayıb. Dünyanın bir çox ölkələrinin tanınmış layihə rəhbərlərini, qonaqları öz ətrafına toplayan həmin tədbirlərin məhz işğaldan yenicə azad olunan ərazilərdə təşkili həm də uzun illər şəhərləri dağıdılan, viran edilən, ərazisində qanunsuz məskunlaşma siyasəti aparılan Azərbaycanın növbəti dəfə əyani şəkildə beynəlxalq ictimaiyyətə ünvanlanan ədalətə çağırış mesajı idi.

Ağdam forumunda ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***“Burada – Ağdamda gördükləriniz Qarabağ ərazisində hər bir kənddə görə bilərsiniz. Bilirəm ki, qonaqlarımız buraya təyyarə ilə yeni tikilmiş Füzuli Hava Limanına gəliblər. Füzuli şəhəri tamamilə dağıdılıb. Bir tikili belə qalmayıb. Eynilə Cəbrayıl, eynilə Qubadlı, Zəngilan da. Bütün binaların dağıdılmadığı yeganə yerlər Şuşa, Laçın və qismən Kəlbəcər olub. Lakin bunun səbəbi odur ki, Ermənistan dövləti müxtəlif ölkələrdən olan erməniləri işğal edilmiş ərazilərdə yerləşdirmək üçün qanunsuz məskunlaşma siyasəti yürüdürdü. Bu, beynəlxalq hüququn və Cenevrə Konvensiyasının kobud şəkildə pozulması hesab olunur”.***

Azərbaycanın qazandığı zəngin təşkilatçılıq təcrübəsi belə deməyə əsas verir ki, paytaxt şəhərimiz 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) uğurla ev sahibliyi edəcək. Qədim şəhərsalma mədəniyyətinə malik ölkəmiz müasir dövrün tələblərinə uyğun ən yeni tikinti, bərpa layihələrinin ortaya çıxarılmasına vəsilə olmaqla bir çox əraziləri dağıdılan dünyaya əsl qurmaq, yaratmaq amalı aşılayacaq, şəhər quruculuğunda sülhə və əməkdaşlığa xidmət nümunəsi yaradacaq.

**“Şərq qapısı”**

## "Huawei" tərəfindən Naxçıvanda peşəkar təlim keçirilib



"Huawei Technologies Azerbaijan" LLC tərəfindən Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının və tabeliyindəki qurumların əməkdaşları üçün peşəkar təlim təşkil olunub.

Təlim çərçivəsində şirkətin ekspertləri tərəfindən müxtəlif texnoloji sahələri əhatə edən mühüm mövzular haqqında təqdimatlar edilib. Belə ki, Səbinə Rzayeva "Global trendlər & FTTH biznesinin uğuru", İsmayıl Quliyev "BRAS & MPLS həllərinin təqdimatı" və Zaur Qasımov və Habib Rahman Kolayil isə "IMS həllərinin təqdimatı" mövzularında çıxış ediblər.

Çıxışlar zamanı fiber-optik texnologiyaların (FTTH – Fiber to the Home) qlobal inkişaf tendensiyaları və bu texnologiyanın Azərbaycanda tətbiqi imkanları müzakirə olunub. Bununla yanaşı, genişzolaqlı xidmətlərin idarə olunması üçün BRAS (Broadband Remote Access Server) və MPLS (Multiprotocol Label Switching) texnologiyaları üzrə müasir şəbəkə həlləri təqdim edilib. Həmçinin IMS (IP Multimedia Subsystem) texnologiyası vasitəsilə rəqəmsal kommunikasiya xidmətlərinin necə optimallaşdırıla biləcəyi və "Huawei"nin bu sahədə təklif etdiyi həllər iştirakçılara ətraflı izah olunub.

## Yerli özünüidarəetmə orqanlarına seçilən qadınlarla və Gender komissiyasının üzvləri ilə görüş



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şahbuz rayonu üzrə yerli özünüidarəetmə orqanlarına (bələdiyyələrə) seçilən qadınlarla və Gender komissiyasının üzvləri ilə görüş keçirilib.

Tədbirdə çıxış edən Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Cəlal Paşayev tədbirin əhəmiyyətini vurğulamış və bu cür tədbirlərin davamlı təşkilinin vacibliyini qeyd etmişdir.

"Şahbuz rayonu üzrə bələdiyyələrdə təmsil olunanların 40%-i qadınlardan ibarətdir", – deyən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək bildirmişdir ki, qadınların cəmiyyətin bütün sahələrində fəal iştirakının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və bu məqsədlə ardıcıl tədbirlər həyata keçirilir.

Komitə sədri bildirmişdir ki, Şahbuz rayonu üzrə 1 şəhər, 1 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə, 24 ərazini əhatə edən 4 bələdiyyə fəaliyyət göstərir ki, 40 nəfər bələdiyyə üzvünün 40%-ni qadınlar təmsil edir. Bələdiyyə sədrlərinin 25%-i qadındır. 1 şəhər, 1 qəsəbə 16 kəndi əhatə edən ərazinin bələdiyyə sədri kişi, 6 kəndi əhatə edən əraziyə isə qadın bələdiyyə sədri rəhbərlik edir.

Komitə sədri həmin orqanlarda qadınların təmsil olunmasının təkcə statistik göstərici deyil, həm də qərarların daha ədalətli, inklüziv və ehtiyaclara cavab verən şəkildə qəbul olunmasına bir zəmanət olduğunu vurğulamışdır.

Sonra Şahbuz rayon Ayrınc bələdiyyəsinin üzvü Aydın Cəfərov çıxış edərək qadınların yerli idarəetmədə fəallığının artdığını vurğulayıb.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin aparıcı məsləhətçisi Zərnigar Orucəliyeva təqdimatla çıxış etmiş və iştirakçılara məlumat kitabı paylanılmışdır.

## Uşaq İncəsənət Festivalının 2-ci turu başlayıb



Avqustun 4-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Uşaq İncəsənət Festivalı – 2025" çərçivəsində 2-ci seçim turuna Naxçıvanda start verilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdlərinin iştirakı ilə seçim turu keçirilib. Seçim turunda iştirakçılar xor kollektivi, solo milli rəqs və milli rəqs ansamblı nominasiyaları üzrə iştirak edib.

Qeyd edək ki, Uşaq İncəsənət Festivalına Naxçıvan Muxtar Respublikası üzrə 1000 nəfərdən çox namizəd qeydiyyatdan keçmiş, bunlardan 15-i kollektiv, 342 nəfəri isə fərdi nominasiyalar üzrə II turda iştirak hüququ qazanıb.

## Naxçıvan şəhərinin işıqlandırılmasındakı mövcud problemlər aradan qaldırılır



Naxçıvan şəhərinin küçələrində mövcud olan işıqlandırma problemlərinin həlli məqsədilə Naxçıvan Şəhər İcra Hakimiyyəti tərəfindən 2024-cü ilin son rübündə yol işıq dirəkləri və onların başlıqlarının alınması ilə bağlı tender elan edilib. 2025-ci il yanvarın 14-də isə bu tender üzrə müqavilə imzalanıb. Müqaviləyə əsasən 650 ədəd yol işıq dirəyi və 300 ədəd işıq dirəyi başlığı alınıb və onların Naxçıvan şəhərinə gətirilməsi prosesinə başlanılıb. Hazırda dirəklərin bir hissəsi şəhərə gətirilib, qalan hissəsinin daşınması isə davam edir.





İlk mərhələdə nümunə olaraq Naxçıvan şəhərinin "İstiqlal" və İslam Səfərli küçələrində işıq dirəklərinin quraşdırılmasına başlanılıb.

Qeyd edək ki, gələcəkdə şəhər ərazisində işıqlandırmanın olmadığı digər küçə və döngələrdə də yol işıq dirəklərinin quraşdırılması nəzərdə tutulur. Bu addım nəticəsində Naxçıvan şəhərindəki işıqlandırma problemlərinin bir hissəsi aradan qaldırılacaq və işlər il ərzində mərhələli şəkildə davam etdiriləcək.

## Dünya əhəmiyyətli abidənin bərpası istiqamətində işlərə başlanılıb

Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biri olan Möminə xatun türbəsinin bərpası istiqamətində işlərə başlanılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə "Atelier Erich Pummer GmbH" Şirkəti arasında imzalanmış müqaviləyə əsasən cari il avqustun 5-də şirkətin işçi qrupu Naxçıvana gəlib.

Şirkət tərəfindən ilkin olaraq ərazidə müvafiq infrastrukturun qurulması işlərinə başlanılıb. Abidənin tarixiliyi qorunub saxlanılmaqla ilkin formaya uyğun bərpa ediləcək.

Qeyd edək ki, Prezident cənab İlham Əliyev bu il may ayının 22-də "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Möminə xatun türbəsinin bərpası istiqamətində başlanılan işlərlə bağlı Avstriya "Atelier Erich Pummer GmbH" bərpa şirkətinin nümayəndələri ilə həmsöhbət olduq.

"Şərq qapısı"na müsahibəsində şirkətin meneceri Çingiz Neymanzadə deyib: "Bu gün biz Naxçıvandayıq və Möminə xatın məqbərəsinin bərpasına ilk addımlar atılır. Bərpa başlamazdan əvvəl ən vacib iş ondan ibarətdir ki, lazımlı infrastruktur yaradılsın. Çünki bərpa işlərinin keyfiyyətlə keçirilməsi üçün gərək bərpaçılara hər cür şərait yaradılsın. Biz də bu məqsədlə bu gün çalışırıq. Öncə hasarlanma işləri gedəcək, sonra lazım olan kommunikasiya xətləri çəkiləcək və digər lazımi işlər görüləcək. Bu iş prosesi yəqin ki, bir-iki həftə çəkəcək. Daha sonra ilk texniki addımlar atılacaq. Məlum olduğu üzrə müxtəlif dövrlərdə yağıntının miqdarından asılı olaraq türbənin yerləşdiyi ərazidə qrunt suları toplaşıb. Və bu məqsədlə tərəfimizdən mütəlif araşdırmalar aparılacaq, həmin su hövzələrinin yerləri təyin olunacaq. Bu proseslərdən sonra iskələ quraşdırılacaq və bərpa işlərinə başlanılacaq".

"Hazırda Möminə xatun türbəsinin bərpası ilə bağlı hazırlıq işləri gedir. İlkin olaraq ərazi mühafizə olunur. Qeyd edim ki, bu işdə mühafizə çox önəmlidir. Çünki burada görüləcək işlər üçün öncə səliqə-sahman, infrastruktur yaradılmalıdır. Bu nöqteyi-nəzərdən biz bu tədbirləri görürük. Göründüyü kimi də çox səliqəli şəkildə işə başlamışıq. Çalışırıq ki, gördüyümüz bu hasarlanma işində ərazidə xırda da olsa heç nəyi korlamadan, yer örtüyünə zərər vurmadan işləri tamamlayaq", – Avstriya "Atelier Erich Pummer GmbH" bərpa şirkətinin nümayəndəsi Əhməd Məmmədov əlavə edib.









# Azərbaycançılıq ideologiyasına yeni töhfə: “Qərbi Azərbaycan irsi”

*İkinci Qarabağ müharibəsindən sonra ölkəmizdə yeni hədəflər müəyyənləşdirilib. Naxçıvan Dövlət Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası üzrə nümayəndəsi Elbrus İsayevlə söhbətimiz bu barədədir. Elbrus müəllimə ilk sualımız belə oldu:*

***– Yeni hədəflər, təbii ki, dövrün, zamanın diqtəsindən irəli gəlir. Bu gün Azərbaycan reallıqları fonunda bu hədəflər barədə nə deyə bilərsiniz?***

– Azərbaycan xalqı milli maraqlarını tam şəkildə təmin edən Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə daha yeni hədəflərə doğru irəliləyir. Ulu Öndər siyasətini, Azərbaycançılıq ideologiyasını öz fəaliyyətində əsas tutan cənab Prezidentin ölkəmiz üçün daha bir böyük layihəsi Qərbi Azərbaycana qayıdış ideyasıdır. Bu ideyanın ətrafında bu gün ölkənin bütün ictimaiyyəti, o cümlədən ziyalılar, Qərbi Azərbaycan əsilli soydaşlarımız çox sıx birləşərək müxtəlif elmi-tədqiqat, nəşr materialları hazırlamaqla yanaşı, tədbirlər, konfranslar, festivallar keçirməklə öz töhfələrini verirlər. 2022-ci ilin dekabr ayında Bakı şəhərində Qərbi Azərbaycan İcmasının binasının açılışı, bina ilə tanışlıq zamanı ölkə başçısının proqram xarakterli çıxışı Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsasını təşkil edir. Ötən dövr ərzində Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif tədqiqat qrupları, araşdırma mərkəzləri fəaliyyətə başlayıb. Azərbaycan Pedaqoji Universitetində professor Mahirə Hüseynovanın rəhbərliyi ilə Qərbi Azərbaycan Araşdırma Mərkəzi yaradılıb və həmin mərkəzin xətti ilə vaxtaşırı olaraq müxtəlif nəşrlər, jurnallar, kitablar nəşr olunaraq ictimaiyyətə təqdim edilir.

***– Bildiyimizə görə, Naxçıvan Dövlət Universitetində də Qərbi Azərbaycan Araşdırma Mərkəzi fəaliyyət göstərir.***

– Əlbəttə ki, digər ali məktəblərimiz də Qərbi Azərbaycanı araşdırmaq, bu sahədə ziyalılarımızın vahid koordinasiya şəklində tədqiqatlarının birləşdirilməsi, ümumiləşdirilməsi və nəşri istiqamətində mühüm işlər aparırlar. Bu, faktdır ki, Qərbi Azərbaycan ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Mərkəz də öz fəaliyyətini Qərbi Azərbaycanı hərtərəfli tədqiqata cəlb etmək istiqamətində qurub. Bu torpaqların azərbaycanlılara aid olmasını təsdiqləyən minlərlə tarixi sənədlər, xəritələr var. Bu tarixi sənədlər, xəritələr və təəssüf ki, abidələrin böyük əksəriyyəti dağıdılıb. Ermənilər uzun illər Qərbi Azərbaycanda məskunlaşdıqdan sonra oranın yerli insanları olan azərbaycanlıları deportasiyaya məruz qoyublar. Bundan sonra isə bütün gücləri ilə çalışıblar ki, buranın, bütövlükdə, tarixini, mədəniyyətini tamamilə dəyişdirib özününküləşdirsin və dünya ictimaiyyətini çaşdırıb o torpaqların onlara aid olduğunu sübuta yetirsinlər. Bu işdə erməni icmalarına böyük dəstək göstərilib. Xüsusilə 1828-ci ildən sonra Rusiya-İran müharibəsi başa çatanda Azərbaycanın ən münbit torpaqlarına, konkret desək, Naxçıvana, İrəvana, Qarabağ bölgəsinə ermənilər yerləşdirilib. Hətta bütün rus çarları I Pyotr, Pavel, Nikolay, Yekaterina öz hakimiyyətləri dövründə ermənilərin xeyrinə müxtəlif fərmanlar imzalayıblar. Onlara müxtəlif imtiyazların verilməsi, müxtəlif dövlət vəzifələrinin etibar olunması məsələnin birinci tərəfini təşkil edirdi. Təbii ki, məsələnin ikinci tərəfində həmin ərazidə daimi yerləşmək məsələsi dayanırdı. Plan belə idi ki, o ərazidə bir xristian dövləti yaradılsın və orada yaşayan müsəlman, türk əhalisi köçürülsün. Tarixin sonrakı dövrlərində bu məsələyə böyük dəstək göstərilib. Mövcud vəziyyətdən istifadə edən ermənilər mədəni abidələrimizə çox böyük zərər vermişdir. 1836-cı ildə Alban kilsəsinin ləğvindən sonra Alban mədəniyyətini də, bütövlükdə, ermənilər mənimsədilər və bu mədəniyyətə aid olan bütün nümunələri öz adlarına çıxmaqla özlərinin Qafqazda köklü xalq olmaqlarını sübuta yetirmək məqsədi güdürdülər. Onlara dəstək də verilirdi. Birinci Dünya müharibəsi başa çatandan sonra onlar yenə imperialist qüvvələrin dəstəyi ilə Cənubi Qafqazda Azərbaycan torpağında, Azərbaycan ərazisində özlərinə dövlət yarada bildilər. Oradakı yerli insanlar tamamilə köçürüldü. 1905-1907, 1918-1920, 1948-1953, 1988-1992-ci illərdə Azərbaycan kökənli insanlar öz ata-baba yurdlarından didərgin düşdülər. Azərbaycan tədqiqatçılarının əlində, müxtəlif ölkələrin arxivlərində çox ciddi tarixi sübutedici sənədlərimiz mövcuddur. Bunlar tarixi xəritələr, hərbi topoqrafik xəritələr, dünyanın müxtəlif ölkələrinin zəngin arxiv materiallarıdır. Belə ki, Avropa, Amerika, Türkiyə, Gürcüstan, eləcə də Rusiya arxivlərində Qərbi Azərbaycan ərazisinin gerçək tarixi ilə bağlı kifayət qədər tutarlı elmi dəlillər, sübutlar mövcuddur. Amma bu gün Qərbi Azərbaycan mövzusunda sistemli şəkildə elmi tədqiqatların aparılması və əlimizdə olan, eyni zamanda arxivlərdən toplanmış materiallar hesabına yeni nəşrlərin meydana gəlməsi, əlbəttə ki, ortaya qoyulmuş milli ideyamıza, Qərbi Azərbaycana qayıdış ideyasına ziyalılarımızın böyük töhfəsidir.



> ***“Dövlətimizin qayğısı və diqqəti ilə nəşr olunmuş kitabda müasir tədqiqat metodlarından istifadə edilib. Müqayisələr və təhlillər aparılıb. Kitabda verilən hər bir fikir, səsləndirilən elmi müddəanın arxasında çox ciddi mənbələr, təkzibolunmaz faktlar dayanır. Bu da xarici ekspertlər, tədqiqatçılar tərəfindən kitaba olan etibarı, inamı artırmaq baxımından çox önəmlidir. Çünki bunlar təkzibolunmaz faktlardır və kifayət qədər hər bir fikri təsdiq edən ciddi sübutlar kitabda öz əksini tapıb.”***

***– Əldə edilmiş tarixi faktların yer aldığı “Qərbi Azərbaycan irsi” kitabı bu istiqamətdə görülən işlərin əyani ifadəsidir.***

– Bu yaxınlarda işıq üzü görmüş “Qərbi Azərbaycan irsi” kitabının birinci cildi qısa müddət ərzində çəkilən zəhmətin bəhrəsidir. Kitabda Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar özünə yer alıb. Qeyd edim ki, bu kitab beş cilddən ibarət olacaq. Bundan sonrakı cildlərdə Qərbi Azərbaycan məscidləri, türbələri, minarələri və digər tarixi abidələrimiz haqqındakı tədqiqatlar oxuculara təqdim ediləcək. Yəqin ki, yaxın vaxtlarda biz növbəti cildlərin təqdimatının şahidi olacağıq. Kitabın orijinallığı ondan ibarətdir ki, rus və ingilis dillərinə tərcümə olunub və eyni zamanda professor Ədalət Vəliyevin də ideya müəllifi olduğu kitabda Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli və tədqiqatçı alim Səbuhi Hüseynovun apardığı araşdırmalar nəticəsində əldə olunmuş kifayət qədər tutarlı arxiv materiallar yer alıb. Kitab ən son poliqrafik formada nəşr olunub. Dünyanın ən məşhur Çikaqo 17 nəşr üslubuna uyğun hazırlanmış kitabda yerləşdirilmiş xəritələr, müxtəlif qəbir abidələrimizin fotoları bir daha onu göstərir ki, Qərbi Azərbaycan ərazisində, sadəcə, insan hüquqları pozulmayıb, eyni zamanda köklü bir millətin mədəniyyətinə, tarixinə, abidələrinə, mənəvi cəhətdən ən müqəddəs hesab olunan qəbir abidələrinə qarşı böyük bir vandalizm hərəkatı törədilib. Qəbir abidələri bir coğrafiyanın demoqrafik vəziyyətini izah edən ən tutarlı araşdırma, tədqiqat obyektidir. Ermənilər məhz ilk olaraq qəbir abidələrini dağıdıblar. Çünki o eldə, o ərazidə yaşayan insanların min illərə dayanan qəbiristanlıqları olub ki, həmin abidələr burada yaşayan insanların kimliyini təsdiq edir.




Qeyd edək ki, ermənilər XX əsrin əvvəllərində Azərbaycandan qoparılmış torpaqlar hesabına yaratdığı dövlət ilə kifayətlənməyiblər. Onlar 90-cı illərin əvvəllərində yenidən buna cəhd göstərdilər, Azərbaycan ərazisində ikinci bir Ermənistan dövlətinin yaradılmasına çalışdılar. Təəssüf ki, Qarabağ və ətraf ərazilərdə onların işğal faktı, orada da yeritdikləri oxşar dağıdıcı siyasət də bunu təsdiq edir. Şükürlər olsun ki, Azərbaycan dövlətinin qüdrəti, Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycana yenidən qayıdışı buna son qoydu. Biz ümidvarıq və tam inanırıq ki, tezliklə Azərbaycan xalqının bugünkü əsas milli ideyası, əsas strateji hədəfi olan Qərbi Azərbaycana qayıdışın ləyaqətli şəkildə təmin olunduğunu görəcəyik. Bu, Azərbaycan xalqının tam hüququdur və ədalətə, sülhə töhfədir. Ona görə ki, bu gün heç bir dövlətin ərazisinə iddia etmədən, heç bir beynəlxalq hüquq normalarını pozmadan öz ata-babalarının yaşadığı, təhsil aldıqları, böyüdükləri kəndlərə, obalara qayıtmaq hər bir azərbaycanlının konstitusion hüququdur.

***– Bu gün hər birimizin üzərinə düşən başlıca vəzifələrdən biri ictimaiyyət arasında, daha çox isə beynəlxalq ictimaiyyətdə Qərbi Azərbaycana qayıdışın elmi əsaslarla sübuta yetirilməsini təmin etməkdir. Bu istiqamətdə görülən işlər barədə məlumat verməyinizi xahiş edirik.***

– Bunun üçün Qərbi Azərbaycan İcması xətti ilə vaxtaşırı olaraq həm ölkəmizdə, həm də müxtəlif xarici ölkələrdə müxtəlif formatlı tədbirlər keçirilir. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu işə yüksək önəm verilir. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə Naxçıvan Dövlət Universiteti artıq iki dəfə Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” festival-konqresinə ev sahibliyi edib. Bu format təsadüfən seçilməyib. Biz bir neçə gün ərzində bu tədbir vasitəsilə Qərbi Azərbaycan həqiqətlərini praktik olaraq dünya ictimaiyyətinə çatdırmağı qarşıya məqsəd qoymuşuq. Festivalda Qərbi Azərbaycanın folklor, mədəniyyət nümunələri, kulinariya mədəniyyəti və müxtəlif məişət əşyalarının, şəxsi arxivlərdə saxlanılmış tarixi fotoların, sənədlərin nümayişi maraq doğurdu. Bu gün onlarla bağlı fundamental əsərlərin yazılması çox vacibdir. Çox sevindirici haldır ki, Qərbi Azərbaycan əsilli insanlar yaşadıqları tarixi torpaqlardan köçərkən çox çətin, ağır şəraitdə Qərbi Azərbaycana aid olan bir sıra tarixi sənədləri, tarixi fotoları da özləri ilə gətirə biliblər. Onlar ciddi, elmi əsaslara söykənən elə sənədlər gətiriblər ki, bu gün tədqiqatçılar həmin sənədlərdən maksimum faydalana bilir.

Bu gün bizim fiziki olaraq Qərbi Azərbaycan ərazisinə gedib tədqiqat aparmaq imkanlarımız yoxdur. Bu kitabın orijinal tərəflərindən biri də məhz yeni nəşrdə həmin məlumatlardan istifadə olunmasıdır. “Qərbi Azərbaycan irsi” kitabının nəşri, bəlkə də, ən çox Naxçıvan Dövlət Universitetinin kollektivini sevindirir. Ona görə ki, biz artıq 2023-cü ildən etibarən universitetin tədris proqramına Qərbi Azərbaycan tarixini, mədəniyyətini, folklorunu, abidələrini öyrədən fənlər salmışıq. İnanırıq ki, bu kitabın verdiyi istiqamət yeni axtarışlara və tədqiqatlara işıq salacaqdır. Yeni gənc tədqiqatçıların, Qərbi Azərbaycanla bağlı maraqlı şəxslərin bu kitabdan ciddi mənbə kimi istifadə etmək imkanları olacaqdır.

Mən kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edirəm. Dövlətimizin qayğısı və diqqəti ilə nəşr olunmuş kitabda müasir tədqiqat metodlarından istifadə edilib. Müqayisələr və təhlillər aparılıb. Kitabda verilən hər bir fikir, səsləndirilən elmi müddəanın arxasında çox ciddi mənbələr, təkzibolunmaz faktlar dayanır. Bu da xarici ekspertlər, tədqiqatçılar tərəfindən kitaba olan etibarı, inamı artırmaq baxımından çox önəmlidir. Çünki bunlar təkzibolunmaz faktlardır və kifayət qədər hər bir fikri təsdiq edən ciddi sübutlar kitabda öz əksini tapıb. Son olaraq deyim ki, ölkə başçısının müəyyənləşdirdiyi bu ideyanın ətrafında məhz elmi cəhətdən həmrəy olmağımızı təmin edə biləcəyik.

***– Müsahibə üçün sağ olun.***

**Aidə İBRAHİMOVA**

# Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri Türkiyənin nüfuzlu klinikalarında yay təcrübəsi keçib

*Naxçıvan Dövlət Universiteti tərəfindən hər il ənənəvi olaraq təşkil edilən təcrübə proqramı çərçivəsində Tibb fakültəsinin 240 nəfərlik müəllim, həkim və tələbə heyəti qardaş Türkiyə Respublikasında təcrübə keçib. Təcrübə proqramı Türkiyənin nüfuzlu ali təhsil müəssisələri Hacettepe, Ankara, Qazi, Ege və Qaradəniz Texniki universitetlərində baş tutub. Təcrübə proqramında Tibb, Tibb (ingilis bölməsi), Tibb (SABAH qrupları), Stomatologiya, Əczaçılıq, Hərbi tibb, İctimai səhiyyə və Psixologiya ixtisaslarının tələbələri iştirak ediblər. Eyni zamanda ortopedik stomatologiya, travmatologiya-ortopediya, şüa diaqnostikası, kardiologiya, oftalmologiya, mama-ginekologiya, yoluxucu xəstəliklər, nevrologiya, endokrinologiya və sosial gigiyena sahələri üzrə rezident-həkimlər də bu proqramdan yararlanıblar. Təcrübə proqramı tələbələrin nəzəri biliklərini praktik vərdişlərlə birləşdirməsinə, beynəlxalq təcrübə qazanmasına və gələcək peşə fəaliyyətlərinə daha hazırlıqlı yanaşmalarına şərait yaradıb. Biz də həmin tələbələrin bir neçəsi ilə redaksiyamızda görüşərək onların təəssüratlarını öyrəndik.*




*Universitetin IV kurs tələbəsi Ağa Qasımov* deyir ki, 2025-ci ilin yayında Ankara şəhərinin Qazi Universiteti xəstəxanasında 2 həftəlik klinik təcrübə keçib. Həkimlərin xəstə qəbulu, anamnez toplanması, müayinə prosesi və diaqnoz qoyma mərhələlərində iştirak edib. Laborator nəticələrin dəyərləndirilməsini, görüntüləmə metodlarının izahını və müalicə qərarlarının necə verildiyini müşahidə edib. Praktik olaraq fiziki müayinə üsulları və klinik protokollar barədə biliklərini artırmağa çalışıb: "Gələcəkdə yaxşı bir klinik həkim olmaq üçün yalnız nəzəri deyil, praktik bacarıqlarımı da davamlı şəkildə inkişaf etdirməli olduğumu bir daha anladım. Qazi xəstəxanasındakı bu qısamüddətli təcrübə mənim üçün çox dəyərli oldu. Düşünürəm ki, bu kimi təcrübələr biz tələbələr üçün olduqca vacibdir".

*V kurs tibb tələbəsi Nüşabə Bağırzadə:* "Son illərdə universitetimizdə Tibb ixtisası üzrə təhsil alan tələbələr yay istehsalat təcrübələrini Türkiyənin ən nüfuzlu universitetlərində keçirlər. Bu yay təcrübələrinin Türkiyənin nüfuzlu universitetlərində keçməsi biz tələbələrə gələcək ixtisas seçimində və məqsədyönlü tibb təhsili almağımızda ciddi köməklik göstərir. 40 nəfərlik heyətlə Trabzon şəhərində Qaradəniz Texniki Universitetinin Farabi xəstəxanasında təcrübədə olduq. Tələbələrimiz tibb, psixologiya və stomatologiya olmaqla, 3 ixtisas profili üzrə təcrübə keçdilər. İkihəftəlik bu təcrübədə biz burada aparılan tibbi müayinə, xəstə qəbulu, diaqnozları və müasir tibbi yanaşmaları öyrənməyə çalışdıq. Təcrübə vaxtı müasir tibbi texnologiya, kitabxana, dərs otaqları, mühazirə zalları və bütünlükdə müasir tibbi infrastrukturla tanış olduq. Tibbi təcrübə ilə yanaşı, biz həm də Trabzonun gəzməli və tarixi yerlərini də ziyarət etdik. Gözəl təbiətə malik olan Trabzon şəhəri həm də ən böyük yaşıllığa malik olan turistik yerdir. Hesab edirəm ki, bütün tələbələrin təəssüratları çox yüksəkdir".

*Tibb fakültəsinin IV kurs tələbəsi Nigar Abdullayeva* da söhbətimizə qoşulur: "Artıq üç ildir, yay təcrübə proqramlarında aktiv iştirak edirəm. Bu müddət ərzində Türkiyənin bir sıra nüfuzlu universitetlərində təcrübədə olmuşam. İlk təcrübəmi Cebeci xəstəxanasının Pediatriya şöbəsində keçirdim. Hər gün onlarla yeni doğulmuş körpənin müayinəsində iştirak etmək imkanı əldə etdim. Növbəti dəfə Qazi Universiteti xəstəxanasında idi. Bu təcrübə zamanı biz Təcili tibbi yardım, Daxili xəstəliklər, Ümumi cərrahiyyə və Ginekologiya şöbələrində praktiki biliklər əldə etdik. Sonuncu yay istehsalat təcrübəm isə Ege Universiteti xəstəxanasının Pediatriya şöbəsində oldu. Hər gün uzman həkimlərlə birlikdə vizitlərə qatılırdıq. Vizitlər zamanı bir çox xəstəliklər, onların müalicə üsulları və xəstələrə yanaşma tərzi haqqında həm professorların, həm də assistentlərin fikirlərini dinləyir, eyni zamanda bizə verilən suallar vasitəsilə mövzuları müqayisəli şəkildə araşdırmaq imkanı qazanırdıq".

*V kurs tələbəsi Bəhriyyə Mustafayeva* deyir: "Əvvəlki illərdə Trabzonda yerləşən Qara Dəniz Texniki Universitetinin Farabi, Ankarada Qazi Universitetinin, İzmirdə Ege Universitetinin xəstəxanalarında və nəhayət, bu yay Ankarada Hacettepe Universitetinin xəstəxanasında təcrübə keçmişəm. Bizə yaradılan bu imkanlar göstərir ki, tibb sahəsində tələbələrə nəzəri biliklə yanaşı, praktik bacarıqların aşılanması Naxçıvan Dövlət Universitetinin əsas prioritetlərindən biridir. Bu il 6 akademik heyət üzvü, 1 rezident və 9 tələbədən ibarət komandamızla birlikdə Hacettepe Universitetinin xəstəxanasında yay istehsalat təcrübəsində iştirak etdik. Təcrübə müddətində xəstəxananın müxtəlif şöbələrində xəstə müayinələri, əməliyyatlar, tədris simulyasiyaları və bölmə iclaslarına cəlb olunduq. Xüsusilə qeyd etmək istərdim ki, təcrübə zamanı xəstəxananın müxtəlif şöbələrində rotasiya aparılması bizə gələcəkdə ixtisaslaşmaq istədiyimiz sahələr haqqında daha ətraflı məlumat əldə etməyə, bu sahələrin iş prinsipləri, xəstə profilləri və gündəlik fəaliyyətləri ilə tanış olmağa şərait yaratdı. Həmçinin xəstəxananın Ümumi cərrahiyyə şöbəsində Türkiyədə sayılı xəstəxanada mövcud olan "Da Vinci" robotik cərrahiyyə cihazı ilə icra edilən əməliyyatlarda müşahidəçi olaraq iştirak etmişik. Bölmə rəhbərliyinin yaratdığı şərait nəticəsində "Da Vinci" robotik cərrahiyyə sisteminə aid əməliyyat simulyatorları vasitəsilə primitiv minimal invaziv texnikaları praktiki olaraq mənimsəmə şansı əldə etdik. Təcrübə zamanı ümumi cərrahiyyə şöbəsində müxtəlif əməliyyatlarda müşahidəçi kimi iştirak etdik. Xüsusi olaraq vurğulamaq istərdim ki, seqmentar kolon rezeksiyası və kolorektal anastomoz, eləcə də süd vəzinin bədxassəli şişinə görə mastektomiya əməliyyatlarında assistent olaraq iştirak etmək imkanı qazandım. Bu mənim üçün olduqca yaddaqalan və dəyərli bir təcrübə idi".

Naxçıvan Dövlət Universitetinin bu istiqamətdə atdığı addımlar bir daha göstərir ki, bu ali təhsil ocağı yalnız yerli deyil, həm də beynəlxalq səviyyədə rəqabətədavamlı, savadlı və əzmkar tibbi kadrların yetişdirilməsinə xidmət edir. Bu təşəbbüslər gələcəyin peşəkar həkimlərinin formalaşmasına zəmin yaradır və Azərbaycan səhiyyəsinin inkişafına töhfə verəcək savadlı gənclərin yetişdirilməsində mühüm rol oynayır.

# Yeni tədris ilində Naxçıvan Dövlət Universitetində 31 xarici professor çalışacaq



Naxçıvan Dövlət Universitetinin (NDU) strateji inkişaf planına uyğun olaraq tədris və tədqiqat fəaliyyətində əcnəbi professorların cəlbi prosesi yeni tədris ilində də davam edir.

Universitetin beynəlmiləlləşmə siyasətinin tələbləri və imzalanan anlaşma memorandumlarının müvafiq bəndlərinin icrası məqsədilə 7 fakültə üzrə 31 xarici professor 2025-2026-cı tədris ilində ali təhsil ocağında mühazirələr oxuyacaq, tədqiqat aparacaqlar. Bu göstərici NDU tarixində əcnəbi akademiklərin tədrisə cəlbində say olaraq ən yüksək göstəricidir. Nüfuzlu universitetlərdən olan alimlər iqtisadiyyat, hüquq, mühəndislik, tibb və digər sahələr üzrə dərslər deyəcəklər. Əcnəbi professorların təkcə tədris sahəsində deyil, həm də beynəlxalq qrant layihələrinin hazırlanması və birgə elmi araşdırmaların aparılmasında da fəal iştirakı planlaşdırılır. Bu uğurlu təşəbbüs qlobal bilik və təcrübə mübadiləsi imkanları yaradacaq.

Bildirək ki, tədris və tədqiqatın keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Dövlət Universitetində əcnəbi professorların tədrisə və elmi fəaliyyətlərə cəlbi davamlı olaraq diqqət mərkəzində saxlanılır. 2025-ci ilin aprel ayında Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq məhz NDU-da genişmiqyaslı "Beynəlxalq Təlim Aylığı" proqramı həyata keçirilib. Proqram çərçivəsində 6 fərqli ölkədən 21 təlimçi universitetdə müxtəlif sahələri əhatə edən təlimlər aparıb. Bu təlimlər 3 dildə – Azərbaycan, türk və ingilis dillərində olmaqla ABŞ, Yaponiya, İngiltərə, Türkiyə, Hollandiya və Özbəkistandan olan tanınmış ekspertlərin iştirakı ilə baş tutub.

Xüsusilə qeyd etmək lazımdır ki, 2024-cü ildə də 16 əcnəbi professor təlim və tədqiqat proseslərinə cəlb olunub. Həmin il Nobel mükafatçısı, dünyaca məşhur alim Əziz Sancar da Naxçıvan Dövlət Universitetinin qonağı olub.

Ümumilikdə isə əcnəbi mütəxəssislərin NDU-ya cəlbi universitetin beynəlxalq elmə inteqrasiyasını gücləndirməklə yanaşı, təhsil və tədqiqat mühitinin daha da zənginləşməsinə xidmət edir.

# İkili diplom proqramlarının həyata keçirilməsi NDU-nun strateji inkişaf planında prioritetlərdəndir



"Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na "Prioritet istiqamət", "İnsan kapitalının inkişafı" başlığı altında Naxçıvan Dövlət Universiteti tərəfindən icrası nəzərdə tutulmuş bəndlər əlavə edilib. Bu bəndlərdən biri Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili bəndidir ki, Naxçıvan Dövlət Universitetində bu istiqamətdə fəaliyyətlər reallaşdırılmaqdadır".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində Naxçıvan Dövlət Universitetinin Tədris Departamentinin direktoru Şahin Əliyev söyləyib.

O qeyd edib ki, eləcə də ikili diplom proqramlarının həyata keçirilməsi universitetin strateji inkişaf planında əsas prioritetlər və fəaliyyət istiqamətlərindən olan beynəlmiləlləşmə istiqamətində öz əksini tapmışdır. Dövlət Proqramının icrası ilə əlaqədar olaraq Naxçıvan Dövlət Universitetində Macarıstanın Con fon Neyman Universiteti ilə Kompüter mühəndisliyi (tədrisi ingilis dilində) ixtisasında ikili diplom proqramına start verib. Bu təhsil imkanı 25 oktyabr 2024-cü il tarixdə Macarıstanın Con fon Neyman Universiteti ilə NDU arasında Kompüter mühəndisliyi (tədrisi ingilis dilində) ixtisası üzrə bakalavr pilləsində ikili diplom müqaviləsinə əsaslanır. Proqram çərçivəsində 2025-2026-cı tədris ilindən etibarən tədrisi ingilis dilində aparılan Kompüter mühəndisliyi ixtisası üzrə tələbə qəbulu həyata keçiriləcək. İlkin mərhələdə bu proqram çərçivəsində qəbul planında 30 tələbənin qəbulunun aparılması Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. Tələbələr bu proqram çərçivəsində təhsillərinin müəyyən hissəsini Macarıstanda yerləşən Con fon Neyman Universitetində davam etdirəcək, nəticədə isə həm Naxçıvan Dövlət Universitetinin, həm də Macarıstanın aparıcı ali təhsil müəssisəsinin diplomlarını əldə edəcəklər. Proqram 3+1 formatında həyata keçiriləcək. Belə ki, Naxçıvan Dövlət Universitetinə qəbul olunan tələbələr 1, 2, 4-cü kursları Naxçıvan Dövlət Universitetində, 3-cü kursu isə Con fon Neyman Universitetində təhsil alacaqlar. İkili diplom proqramına tələbələr həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul ola biləcəklər. İkili diplom proqramı ilə bağlı digər xərclərin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 8.9.5-ci bəndinin icrası ilə bağlı ayrılmış vəsait hesabına ödənilməsi nəzərdə tutulmuşdur.

Tələbələr 4 semestr təhsil aldıqdan sonra yerli proqramdan fərqli olaraq müxtəlif sahələr üzrə ixtisaslaşmaq imkanına malik olacaqlar. Bu sahələr Şəbəkə təhlükəsizliyi və əməliyyatları, Sənaye informatikası, Mobil və veb tətbiqlərin hazırlanması ixtisaslaşmalarıdır. Proqramın yerli proqramdan digər fərqi ondan ibarətdir ki, yerli proqramda tələbələr sonuncu semestrdə yalnız təcrübəyə getdikləri halda, ikili proqramda tələbələr sonuncu semestrin bir hissəsini təcrübədə olur, digər hissəsini isə yeddinci semestrdə götürdükləri buraxılış işinin tamamlanması və müdafiəsinə həsr edirlər.

"İkili diplom Azərbaycanın təhsil məkanının Avropaya inteqrasiyasında yeni bir mərhələ olmaqla bu proqramda iştirak edən tələbələrin həm yerli, həm də beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssis kimi formalaşmasına şərait yaradacaq. Çünki Macarıstanın Con fon Neyman Universiteti mühəndislik və informasiya texnologiyaları sahəsində dünyada tanınan təhsil müəssisələrindən biridir.

Qeyd edək ki, Kompüter mühəndisliyi (tədrisi ingilis dilində ) ixtisası üzrə ikili diplom proqramı Naxçıvan Dövlət Universitetinin ikili diplom sahəsində ilk təcrübəsi deyildir. Belə ki, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq 2022-2023-cü tədris ilindən Naxçıvan Dövlət Universiteti və Türkiyənin Çankırı Karatekin Universiteti arasında ikili diplom layihəsi əsasında İqtisadiyyat ixtisasına tələbə qəbulu həyata keçirilir. Bu proqram 2+2 formatında həyata keçirilir. Proqrama qəbul olunmuş tələbələr təhsilin ilk iki ilini qəbul olduqları universitetdə, digər iki ilini isə ortaq proqram üzrə digər universitetdə tamamlamaqla həm Çankırı Karatekin Universitetinin, həm də Naxçıvan Dövlət Universitetinin diplomlarını əldə etmiş olurlar. Proqram çərçivəsində Naxçıvan Dövlət Universitetinə qəbul olmuş tələbələr 2024-2025-ci tədris ilindən etibarən qardaş ölkənin Çankırı Karatekin Universitetində təhsillərini davam etdirməkdədirlər", – deyə direktor vurğulayıb.

# Gələcəyin yol xəritəsi bu gün cızılır

## Ali təhsil müəssisələrinə ixtisas seçimi başlayır

***Artıq ölkənin ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi başlayır. Minlərlə gəncin həyatı üçün həlledici mərhələ olan bu proses 11-19 avqust tarixlərini əhatə edəcək. Bu seçim abituriyentlərin yalnız hansı təhsil müəssisəsində təhsil alacağı ilə bağlı deyil, həm də hansı peşədə çalışacağına, necə bir həyat yaşayacağına və gələcəkdə özlərini harada görəcəklərinə qərar vermək deməkdir.***

***Odur ki, bu günlərdə bir sıra suallar ortaya çıxır: abituriyentlər ixtisas seçimində nələrə diqqət yetirməlidirlər? Gənclər bu məqamda seçim edərkən hansı çətinliklərlə qarşılaşırlar? Valideynlərin təzyiqi, cəmiyyətin gözləntiləri və sair. Məhz bu suallar ətrafında təhsil eksperti Ramin Nurəliyevlə həmsöhbət olduq.***



O, abituriyentlərin seçim zamanı doğru qərar verməsi üçün vacib məqamları bizimlə bölüşdü. Bildirdi ki, ixtisas seçimi bütün abituriyentlərin üzərində ciddi düşünməli olduğu bir mərhələdir.

Ekspertin sözlərinə görə, ixtisas seçimindən əvvəl mütləq statistik analiz aparılmalıdır. Dövlət İmtahan Mərkəzi tərəfindən yayımlanan “Abituriyent 4” jurnalında ixtisas qrupları üzrə plan yerləri, keçid balları və dövlət sifarişli yerlər haqqında ətraflı məlumat verilir. Bu resurslardan istifadə olunmadan verilən qərarlar abituriyenti riskli nəticələrlə üz-üzə qoya bilər: “Hər bir abituriyent topladığı bala uyğun olaraq həm dövlət sifarişli, həm də ödənişli ixtisasların plan yerlərinə diqqət etməlidir. Plan yerlərinin keçən illərlə müqayisəsi aparılmalı, hansı ixtisaslarda artım və ya azalma olduğu araşdırılmalıdır. Statistikaya əsaslanmayan seçim böyük riskdir,” – deyə Ramin Nurəliyev vurğuladı.

O, həmçinin bildirdi ki, abituriyentlər keçənilki keçid ballarına baxmaqla kifayətlənməməlidirlər. Çünki hər il imtahan nəticələrində dəyişikliklər baş verir və bu da keçid ballarına ciddi təsir göstərir: “Bəzən abituriyentlər düşünürlər ki, keçən il hansı ixtisasa 420 balla qəbul olubsa, bu il də, təxminən, eyni olacaq. Amma bu yanlış yanaşmadır. Məsələn, ötən il I ixtisas qrupunda ciddi eniş baş verdi, əvvəlki il isə artım müşahidə olunmuşdu. Bu o deməkdir ki, yalnız keçənilki nəticəyə baxıb seçim etmək olmaz. Hər il yeni statistikaya əsaslanaraq doğru uyğunlaşdırma aparmaq lazımdır”.

Ramin Nurəliyev abituriyentlərin qarşılaşdığı əsas çətinliklərdən birini də valideyn təzyiqi kimi qeyd edir. Onun sözlərinə görə, bəzi hallarda valideynlər öz istəklərini önə çəkərək övladlarını istəmədikləri sahəyə yönəldirlər: “Əgər bir abituriyent jurnalist olmaq istəyirsə, lakin valideyn onu hüquqşünaslıq və ya tibb sahəsinə yönləndirirsə, burada gələcək narazılıq və peşə təəssüfü qaçılmazdır. Peşəni sevən və seçən abituriyentdir. Onun bu yolda motivasiyası yoxdursa, o sahədə inkişaf etməsi də çətin olacaq. Ona görə valideynlərə tövsiyəmiz budur ki, övladlarının seçimlərinə hörmətlə yanaşsınlar, onlara dəstək olsunlar”.

Ekspert əlavə edir ki, bəzi sahələrin spesifikliyi ilə bağlı məlumat çatışmazlığı da var. Bu hallarda mütəxəssislərdən məsləhət almaq, ixtisasların iş imkanları ilə tanış olmaq və seçimləri daha ağıllı formada aparmaq olduqca vacibdir.

Ramin Nurəliyev abituriyentlərə xatırladır ki, qəbul olunduqdan sonra ali məktəbə portal üzərindən rəsmi qeydiyyat da mütləqdir. Əks halda, gənc qəbul olunsa belə, tələbə statusu qazanmır: “Hər il bəzi abituriyentlər qəbul sevincinə qapılaraq və ya texniki səbəblərdən portalda qeydiyyatdan keçməməklə öz yerlərini itirirlər. Bu, çox ciddi məsələdir. Qəbuldan sonra sistemdə təsdiq mərhələsi tamamlanmasa, təhsil müəssisəsinə abituriyentin adı göndərilmir və bu da onun qəbul edilməmiş hesab olunmasına gətirib çıxarır. Belə hallar artıq yaşanıb, nəticədə, peşmançılıq yaranıb”.

Onun sözlərinə görə, ali məktəblərə qəbuldan sonra avqustun son günlərində kollec ixtisas seçimi mərhələsi də başlayacaq. Bu proses də eyni qaydalarla həyata keçiriləcək və portal üzərindən seçim və təsdiq forması ilə icra olunacaq.

Ramin Nurəliyevin ixtisas qrupları üzrə rəqabət səviyyəsi ilə bağlı verdiyi məlumatlar, abituriyentlər üçün vacib xəbərdarlıqdır: “1-ci ixtisas qrupunda (Rİ alt qrupu) ciddi rəqabət olacaq. 4-cü ixtisas qrupunda da çox böyük rəqabət olacaq, xüsusilə də tibb ixtisaslarında. Buna görə də abituriyent seçim zamanı statistik analiz aparmalıdır.

2-ci ixtisas qrupunda bir o qədər böyük problem müşahidə etmirəm. Əgər abituriyentlər düzgün seçim etsələr, 2-ci qrupda rahatlıqla qəbul imkanları olacaqdır.

3-cü ixtisas qrupunda vəziyyət bəzi ixtisaslarda gərgin, bəzilərində isə çox ciddi problem olmayacaq kimi görünür.

Blok imtahanı nəticəsi 50-100 bal olan abituriyentlər var ki, qruplarına aid, sadəcə, məhdud ixtisaslara müraciət edə bilərlər. Yəni DİM-də qayda belədir ki, abituriyent qəbul imtahanının ikinci mərhələsində əgər 50-100 arası bal toplayırsa, bu abituriyentlər ixtisas qrupuna uyğun olaraq bütün ixtisaslara müraciət edə bilməzlər, sadəcə, məhdud ixtisaslara edə bilərlər.

Məsələn, 1-ci ixtisas qrupu üçün kənd təsərrüfatı ixtisasları, meşəçilik, şərabçılıq, aqronomluq tipli ixtisaslar, 2-ci ixtisas qrupu üçün isə marketinq, biznesin idarə edilməsi, turizm ixtisasları tipli ixtisaslar, 3-cü ixtisas qrupunda sosial iş, muzey, arxiv işi, abidələrin qurulması, 4-cü ixtisas qrupunda isə ekologiya, bitki mühafizə və sair kimi ixtisaslara abituriyentlərin qəbulunda ciddi rəqabət olacaq. Çünki bu qəbul ilində blok imtahanında 100 balı keçməyən abituriyentlərin sayı kifayət qədər çoxdur.

2-ci və 4-cü qruplarda ciddi problem görmürəm, lakin 1-ci və 3-cü ixtisas qruplarında böyük rəqabət olacaq.

5-ci qrupda da rəqabəti təxmin edə bilirəm. İdman ixtisaslarında ciddi rəqabət gözlənilir, həmçinin dizayn və qabiliyyət tələb etməyən dizayn ixtisaslarında çox böyük rəqabət ehtimal olunur. Çünki buraxılış imtahanında 5-ci ixtisas qrupunda, ancaq qabiliyyət tələb etməyən ixtisaslara müraciət olunacaq. Bu isə balların hardasa 180+ olacağı deməkdir. Regionlarda bu bal daha aşağı ola bilər. Abituriyentlərə tövsiyəm düzgün seçim etmələridir, lazımdırsa, mütəxəssislərlə də məsləhətləşsinlər. Həmçinin bu haqda elmi jurnalları, mətbuatda dərc olunan yazıları oxusunlar və seçim etsinlər”.

Unutmayaq ki, ali məktəbə qəbul olmaq bir mərhələdirsə, doğru sahəyə qəbul olmaq ömürlük rahatlıqdır. Həyatın bir dönüm nöqtəsində dayanarkən gənclər özlərinə bu sualı verməlidirlər: “Mən gələcəkdə nə etmək istəyirəm?” Bu sualın cavabı onların ixtisas seçimlərini müəyyən etməlidir. Bu yolda atılan hər addım isə bir az inam, bir az cəsarət və xeyli düşüncə tələb edir.Əgər düzgün seçim edilərsə, ixtisas, sadəcə, diplom deyil, bir ömrün sevinci və uğurunun başlanğıcı ola bilər.

**Elnurə CƏFƏROVA**









# Balaca könüllərə işıq saçan mədəniyyət məkanı

Hər bir uşağın dünyası rəngli, maraqlı və sonsuz xəyal gücü ilə zəngindir. Bu rəngarəng aləmin formalaşmasında isə kitabların rolu əvəzolunmazdır. Məhz buna görə də kitablar balaca oxucular üçün yalnız bir mütaliə vasitəsi deyil, həm də xəyal güclərini qanadlandırdığı qiymətli mənbədir. Ona görə də ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda kitabxanaların fəaliyyətinə böyük önəm verilir. Belə mədəniyyət müəssisələrində uşaqlar kitablarla tanış olur, yeni biliklər əldə edir, müxtəlif tədbirlərdə iştirak edərək həm maariflənir, həm də əylənirlər. Kitabxanalar təkcə kitab mütaliəsi üçün məkan deyil, burada uşaqlar üçün nağıl günləri, ədəbi-bədii tədbirlər, təhsil yönümlü viktorinalar, kitab sərgiləri, interaktiv görüşlər və oxu saatları keçirilir.







Naxçıvan şəhərinin mərkəzində qərarlaşmış Adil Babayev adına Uşaq Kitabxanası isə məktəbyaşlı uşaqların daha çox üz tutduqları ünvanlardan biridir. Müəssisənin fəaliyyəti, keçdiyi inkişaf yolu və bugünkü iş prinsipləri barədə məlumat almaq üçün kitabxananın direktor müavini Kəmalə Ağayeva ilə həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, kitabxana 1935-1965-ci illərdə şəhər kitabxanasının uşaq şöbəsi kimi fəaliyyət göstərsə də, 1965-ci ildən etibarən müstəqil Uşaq Kitabxanasına çevrilib. Əsas məqsəd uşaqlara və yeniyetmələrə kitabxana xidməti göstərmək, eyni zamanda digər uşaq kitabxanalarına metodik yardım etmək olub”.

Kitabxananın bu günə qədər keçdiyi yol isə, həqiqətən də, təqdirəlayiqdir. Əvvəllər Naxçıvan şəhərinin müxtəlif ünvanlarında fəaliyyət göstərən kitabxana 2022-ci ildən Həsən Əliyev küçəsində inşa edilmiş müasir, geniş və işıqlı binaya köçürülüb. Hazırda burada 110 mindən çox çap məhsulu uşaqların istifadəsinə verilib. Kəmalə Ağayevanın sözlərinə görə, kitabxanada 4 şöbə fəaliyyət göstərir və şöbə əməkdaşları üzərlərinə düşən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə çalışır. Şöbələrdən biri Oxuculara xidmət şöbəsidir. Burada uşaqlarla mütəmadi təmasda olunur, onların maraqları və yaş xüsusiyyətləri nəzərə alınaraq kitablar seçilir.

Bu günlərdə Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasına yeni kitablar təqdim olunub.

Kitablar Bakıda fəaliyyət göstərən uşaq ədəbiyyatına xüsusi marağı olan və maarifləndirici təşəbbüsləri dəstəkləyən bir kitabsevər tərəfindən kitabxanaya hədiyyə edilib. Bu nəcib təşəbbüs uşaqların oxu vərdişlərinin formalaşması, dünyagörüşlərinin genişlənməsi və kitablarla erkən yaşdan dostluq etməsi baxımından yüksək qiymətləndirilir.

Öyrəndik ki, kitabxanada “Nağıl günü”, “Oxucu günü”, “Mütaliə günü”, eləcə də şəhid ailələri və qazilərlə görüşlərin, viktorinaların, tədbirlərin, kitab müzakirələrinin keçirilməsi diqqət mərkəzində saxlanılır. Müsahibim uşaqların kitaba sevgisinin yalnız məktəblə məhdudlaşmaması istiqamətində görülən işləri də diqqətimə çatdırdı: “Çalışırıq ki, onlar istirahət zamanı da oxumaq istəyini hiss etsinlər. Yay aylarında park və açıq məkanlarda kitab sərgiləri təşkil edirik. Əlavə olaraq məhdud fiziki imkanlı uşaqlara evlərində xidmət göstəririk. Ən maraqlı layihələrdən biri “Nağıl günləri”dir. Hər həftənin ikinci günü bağçalarda keçirilən bu tədbir uşaqlar üçün seçmə nağılların oxunması, nağıl kitabları sərgilərinin təşkili və cizgi filmlərinin nümayişi ilə yadda qalır. Biz uşaqlara xeyirin hər zaman şər üzərində qalib gəldiyini aşılamaq, onlarda milli və mənəvi dəyərlərə bağlılıq yaratmaq istəyirik. Bu görüşlərdə uşaqlar nağılların sehrli dünyasına səyahət edir, bəzən qəhrəmanlara çevrilərək interaktiv oyunlara qatılır, bəzən isə özləri hekayə qurmağa başlayırlar”.

Kitabxana barədə söhbətlərdən gəldiyimiz qənaət belə oldu ki, burada mütaliə vərdişlərinin aşılanması, uşaqlarda təfəkkür və yaradıcılıq bacarıqlarının inkişafı istiqamətində görülən işlər bu gün də uğurla davam etdirilir. Bu kitabxananın qapısından içəri girən hər bir uşaq, əslində, gələcəyinə bir addım atmış olur.

**Zəhra VƏLİYEVA**

# Qohum evliliyi qadağandır! Bəs bu qadağanı pozanları hansı cəza gözləyir?

*Məlum olduğu kimi, bu il iyulun 1-dən etibarən ölkəmizdə ailə münasibətlərinə dair mühüm bir hüquqi dəyişiklik qüvvəyə minib. Beləki, Prezident İlham Əliyevin təsdiqlədiyi Ailə Məcəlləsinə edilən dəyişikliklə əmi, xala, bibi və dayı uşaqlarının evlənməsinə rəsmi şəkildə qadağa qoyulub. Statistik məlumatlara diqqət yetirəndə görürük ki, qeydə alınan hər yüz nikahdan onu və daha çoxu qohum evliliklərinə əsaslanırdı. Lakin bu yeniliklə nikahın bağlanmasına mane olan hallar genişləndirilib və yaxın bioloji qohumluq əlaqələri olan şəxslər arasında evliliklərə hüquqi məhdudiyyətlər tətbiq edilməsi qüvvəyə minib.*



Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Könül Babayeva ilə həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, beynəlxalq hüquq normaları, xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Konvensiyası ailənin və uşaqların müdafiəsini dövlətin birbaşa vəzifəsi kimi təsbit edir. Bu baxımdan, dövlətin genetik riskləri azaltmaq və cəmiyyətin sağlamlığını qorumaq məqsədilə normativ müdaxiləsi həm hüquqi, həm də etik cəhətdən əsaslandırılıb. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 6.3-cü maddəsində də açıq şəkildə qeyd edilir ki, cəmiyyətin sağlamlığının və təhlükəsizliyinin qorunması üçün mülki hüquqlar qanunla məhdudlaşdırıla bilər.

Beləliklə, qohum nikahlarının qadağan edilməsi qanunvericiliyin ruhuna və beynəlxalq hüquq normalarına tam uyğundur. Qanunun qəbul edilməsinin zərurəti isə mövcud tibbi-genetik risklər, sosial nəticələr və uzunmüddətli sağlamlıq siyasəti baxımından obyektiv və sistemli tədbirdən ibarətdir. Cəmiyyətin ümumi rifahı və gələcək nəsillərin sağlamlığı hüquq müstəvisində hər zaman üstün tutulur. Bu səbəbdən sözügedən qanun dəyişiklikləri həm hüquqi baxımdan əsaslandırılmış, həm tibbi cəhətdən zəruri, həm də sosial məsuliyyət baxımından vacib və uzaqgörən addım kimi qiymətləndirilməlidir. Cəmiyyətin rifahı və gələcək nəsillərin sağlamlığı üçün bu qərarı dəstəkləmək hər bir vətəndaşın mənəvi və hüquqi borcudur.

Könül xanımın sözlərinə görə, tibb mütəxəssisləri dəfələrlə bildiriblər ki, yaxın qohumların evliliyi nəticəsində dünyaya gələn uşaqlarda irsi və genetik xəstəliklərin yayılma ehtimalı kəskin şəkildə artır. Belə ki, yad insanların nikahı zamanı uşaqda qüsur riski 2-4 faiz olduğu halda, qohum nikahlarında bu risk 4-8 faizə qədər yüksəlir, yəni, təxminən, 2 dəfə artır. Belə uşaq doğulan ailələrdə psixoloji, sosial və maliyyə gərginlikləri meydana gəlir, bu hallar boşanma və ailədaxili narazılıq kimi hallara gətirib çıxarır. Bu tibbi risklər həm fərdi, həm də ictimai səviyyədə ciddi nəticələr doğurur. Dövlətin məqsədi isə sağlam genofondu qorumaq, gələcək nəsillərin inkişafını təmin etməkdir.

Müsahibimiz deyir ki, Ailə Məcəlləsinə edilən dəyişikliyə əsasən 2025-ci il iyul ayının 1-dən Azərbaycanda əmi, xala, bibi və dayı uşaqlarının evliliyi qadağan olunub. Artıq rəsmi nikaha girmək istəyən şəxslərin qohumluq dərəcəsi yoxlanılır və bu zaman cütlükdən əlavə sənədlər tələb edilir.

Narahatlıq doğuran tək məqam belə evliliklərdən doğulan uşaqların yalnız görünüşcə bir-birinə bənzəməsi deyil, həm də qanqohumluğu nəticəsində müxtəlif irsi xəstəliklərin daşıyıcısı olmasıdır ki, bu da genetik xəstəliklərin daha geniş yayılması ilə nəticələnir. Deməli, qohum evlilikləri, sadəcə, mülkiyyəti qorumaq, illərlə bir-birini tanıyan, birlikdə böyüyən şəxslərin nikahı deyil, həm də xəstə nəslin yetişməsidir. Bu baxımdan genetik xəstəliklərin artmasına təsir göstərən qohum evliliyinin qanunla qadağan olunması vacib addımdır. Ailənin xoşbəxtliyi həm də dünyaya gələcək uşaqların sağlamlığından asılıdır. Başqa sözlə, xoşbəxt gələcək sağlam uşaqlardan başlayır.

Könül Babayeva onu da diqqətə çatdırdı ki, komitə tərəfindən mütəmadi olaraq əhali arasında "Qohum və erkən nikahlar sağlam cəmiyyətin formalaşması üçün əsas maneələrdən biridir", "Qohum və erkən nikahların yaratdığı fəsadlar", "Nikah və din" və sair mövzularda maarifləndirici tədbirlər keçirilir. Maarifləndirmə və məlumatlandırma tədbirləri sistemli şəkildə davam etdirilməkdədir.

"Qohum evliliyi qadağasını pozan şəxsləri hansı hüquqi məsuliyyət gözləyir?" – sualımıza isə cavab olaraq Könül xanım bildirdi ki, Ailə Məcəlləsinin 12-ci maddəsinə əsasən bu cür nikahların bağlanmasına, ümumiyyətlə, yol verilmir; bu isə o deməkdir ki, bu nikahlar dövlət tərəfindən qeydiyyata alınmır. Buna görə də həmin şəxslərin bu nikaha hüquqi olaraq daxil olmaları mümkün olmadığından bununla bağlı hər hansı inzibati və cinayət məsuliyyəti nəzərdə tutulmamışdır. Nikaha daxil olmaq istəyən şəxslər arasında qohumluq münasibətlərinin olub-olmaması Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə qeydiyyat şöbəsi, konsulluq idarəsi və ya icra hakimiyyəti nümayəndəliyinin vəzifəli şəxsi tərəfindən yoxlanılacaq.

"Cari il iyulun 1-dən Azərbaycanda qohum evliliklərinin qadağan olunması əhalinin genetik sağlamlığının qorunması və irsi xəstəliklərin yaranma riskinin minimuma endirilməsi məqsədi daşıyır. Dəyişikliklə bərabər, onun cəmiyyət tərəfindən qəbul edilməsi və tətbiqi istiqamətində də müəyyən tədbirlər görülüb və görülməkdədir. Əhali arasında cəmiyyətin bu dəyişikliyə nə dərəcədə hazır olduğu məsələsinə gəldikdə isə mövcud vəziyyət göstərir ki, yanaşmalar fərqlidir. Əhalinin bir hissəsi bu qadağanı alqışlayır və onu gələcək nəsillərin sağlamlığının qorunması baxımından zəruri addım kimi qiymətləndirir. Bəzi regionlarda qohum evlilikləri ənənə kimi qəbul olunduğundan bu dəyişikliyin sözsüz qəbul edilməsi və tətbiqi üçün zamana, ardıcıl maarifləndirməyə və ictimai şüurun artırılmasına ehtiyac var", – deyə müsahibimiz əlavə etdi.

Sağlam və xoşbəxt ailənin təməli bu yolun ilk addımından – nikah faktorundan başlayır. Bu yolda düzgün seçim etmək, qeyd edilən bütün faktları gözardı etmədən diqqətdə saxlamaq və ən əsası qohum evliliklərinə yox demək əsas məsələlərdən biridir. İnanırıq ki, bu qərardan sonra ölkəmizdə bu halların baş verməməsi üçün istər ailələrimiz, istərsə də aidiyyəti qurumlar bütün zəruri addımları atacaq və nümunəvi, xoşbəxt, firavan ailə dəyərlərimizin formalaşmasına öz töhfələrini verəcəklər.

✍ Bülbül RÖVŞƏNQIZI

## Naxçıvanlı gənclər "Gənclər düşərgəsi-2025"də




Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilatçılığı ilə Quba şəhərində gənclər üçün düşərgə təşkil olunub. Beş gün davam edən düşərgədə ölkənin müxtəlif bölgələrindən olan fəal və istedadlı gənclər bir araya gəlib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə düşərgədə Naxçıvandan 29 gəncin iştirakı təmin olunub. Naxçıvanlı gənclər düşərgənin bütün mərhələlərində fəallıq nümayiş etdirərək həm fərdi bacarıqlarını inkişaf etdirməyə, həm də ölkənin digər regionlarından olan gənclərlə sıx əməkdaşlıq qurmağa çalışıblar.

## Beynəlxalq Gənclər Günü münasibətilə silsilə tədbirlərə start verilib



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 12 avqust – Beynəlxalq Gənclər Günü ilə bağlı hazırladığı tədbirlər planının icrasına başlayıb.*

İlk tədbir gənclərin intellektual inkişafına xidmət edib. Gənclər və İdman Nazirliyinin "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyi ilə birgə təşkilatçılığı əsasında gənclər arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu təşkil olunub. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan tədbirdə 7 komanda iştirak edib. İki turdan ibarət yarışda, ümumilikdə, 26 sual səsləndirilib və hər düzgün cavab 1 xalla qiymətləndirilib.

Yekun nəticələrə əsasən "Paradoks" komandası yarışmanın qalibi olub. Qalib komandanın üzvləri diplom, fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

## Şahmatçımız onlayn platformada qrossmeyster adına layiq görülüb




Naxçıvan şahmatçısı Tural Zeynalov Beynəlxalq Şahmat Federasiyası – FIDE tərəfindən "Arena Grand Master" (AGM, Arena Qrossmeyster) tituluna layiq görülüb.

Həm FIDE hakimi, həm də şahmat müəllimi kimi fəaliyyət göstərən T.Zeynalovun yeni titulu muxtar respublikada ilk hesab olunur. Naxçıvandan bir çox şahmatçı sözügedən platformadan istifadə edərək ACM, AFM, AİM adlarına layiq görülüb.

Qeyd edək ki, bu titullar federasiyanın rəsmi onlayn platforması olan "FIDE Online Arena"da (wordchess.com) göstərilən nəticələrə əsasən verilir və yalnız orada keçərlidir.

## Batabat yaylağında əhaliyə yerində tibbi xidmət göstərilib





Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Batabat yaylağında məskunlaşmış əhalinin sağlamlıq vəziyyətinin yoxlanılması və profilaktik məqsədlə tibbi xidmət təşkil olunub.

Tibbi aksiya çərçivəsində müxtəlifixtisaslı həkimlər tərəfindən əhalinin sağlamlıq vəziyyəti qiymətləndirilib. Müayinələr zamanı aşkar edilmiş bəzi xəstəliklər üzrə ilkin diaqnoz qoyulub və müvafiq tövsiyələr verilib.

Sakinlər zəruri dərman vasitələri ilə təmin olunub, eyni zamanda əhali arasında sağlam həyat tərzinin təbliği ilə bağlı maarifləndirici söhbətlər aparılıb.

Təşkil olunan bu cür tədbirlər əhalinin sağlamlığının qorunmasına xidmət etməklə yanaşı, vətəndaşların keyfiyyətli tibbi xidmətə əlçatanlığının artırılması baxımından da xüsusi əhəmiyyət kəsb edir.

# “Uşaq şəhərciyi”ndə bir axşam

*Naxçıvanlıların çoxu yay axşamlarını şəhərin mərkəzində yerləşən Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında keçirir. Naxçıvanlılar buraya “uşaq şəhərciyi” də deyirlər. Parka kiçikdən-böyüyə hər kəs sevə-sevə üz tutur, uşaqlar əylənir, böyüklər isə mənalı istirahətdən zövq alırlar. Bu məkan axşam saatlarında bir başqa gözəlliyə qərq olur. Biz də axşam saatlarına doğru üz tuturuq sözügedən məkana. İşdən çıxan valideynlər övladları ilə birgə buraya gəlirlər. Çox keçmir ki, parkda canlanma hiss olunur, əsl yay istirahətinin səsi duyulur. Uşaqlardan kimi yelləncəkdə yellənir, kimi sürüşkəndə sürüşür, kimisi də onlar üçün quraşdırılan attraksionlarda əylənir.*









Valideynlər skamyalarda oturub, ərazidə fəaliyyət göstərən iaşə xidmətlərindən yararlanır, övladlarının əylənmələrinə tamaşa edirlər. Bir sözlə, bu ünvan 50 ilə yaxındır ki, doğma naxçıvanlılarla birgə şəhərimizin qonaqlarının da ruhuna dinclik bəxş edir. Qeyd edək ki, Naxçıvan şəhərində yaradılan ilk əyləncə ünvanı da məhz bura olub: Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı.

Parkı gəzib dolaşdıqca bir-birindən maraqlı mənzərələrə şahid oluruq. Bir neçə dəqiqə ətrafı seyr etdikdən sonra yaxınlıqdakı skamyada əyləşən bir ailəyə yaxınlaşıram. Hal-əhval tuturam. Öyrənirəm ki, müsahibim Naxçıvan şəhərində yaşayan Nəzakət Nəbiyeva deyir: “Hər gün nəvələrimlə üz tutduğum bu məkanda şən, gülərüz, xoşbəxt balaları gördükcə öz uşaqlıq çağlarım yadıma düşür. Şəhərimizdə uşaqlar üçün əyləncə ünvanları çoxdur, parklar kifayət qədər var, lakin bu məkan mənim və ailə üzvlərimin daha çox xoşuna gəlir. Hətta bu gün buraya nəvəmin xoş gününü qeyd etmək üçün toplaşmışıq. Əvvəllər bu cür istirahət məkanları çox az idi. Şərait də belə deyildi. Xatırlayıram ki, mən də uşaq olanda ailəm məni bura oynamağa gətirərdi. Yadımdadır, parkın mərkəzində karusel də var idi. İndi parkın görkəmi bir xeyli dəyişib, buraya üz tutanların sayı da getdikcə artmaqdadır”.

Attraksionların birində əylənən uşaqlardan 13 yaşlı Məryəm Əlizadə deyir: “Bura mənim ən çox sevdiyim yerdir. Hər dəfə parka gələrkən ilk olaraq bu qayıqlara minirəm. Sonra sürüşkənə qaçıram”. Məryəmin üzündəki təbəssüm onun bu məkanda keçirdiyi xoş anların sözlərlə ifadə edilməyəcək qədər zəngin olduğunu göstərir.

Şıxmahmud kənd sakini Elnur Xudaverdiyev buraya övladı ilə gəlib. Gülümsəyərək danışır: “Uşaqlarla yanaşı, biz böyüklər də bu parkın sakitliyinə, səliqəsinə öyrəşmişik. Ətrafda görünən hər şey gözoxşayan, könüləçandır. Ən maraqlısı isə qayıqlarla gəzintidir. Övladımın hədsiz sevincinə səbəb olan bu əyləncə vasitəsinə yalnız bizim deyil, digər qonaqların da marağı çox böyükdür. Bizim uşaq da buranın gözəlliyinə o qədər məftun olub ki, evə qayıtmaq istəmir”.



Yavaş-yavaş yoluma davam edirəm. Parkda eşidilən səslər isə dəyişmir – uşaq gülüşləri, həyat sevinci və mənalı bir gecənin musiqisi. Bu park, əslində, həm balacaların oyun meydanı, həm də böyüklərin istirahət limanıdır. Naxçıvanın bu kiçik guşəsində bir axşam keçirmək insanı gündəlik həyatın qayğılarından ayırır, ürəyinə işıq salır. Biz də hər kəsə isti yay günlərində gözəl istirahət arzulayıb bu məkanla sağollaşırıq...

**“Şərq qapısı”**













## DÜNYA xəbərləri

### Böyük Britaniyada 50 illik fasilədən sonra raket buraxılışı həyata keçiriləcək

Bu ölkədə yerləşən “Skyrora” şirkəti Şotlandiyanın Şetland adasında yerləşən Saxavord kosmodromundan 16 vertikal buraxılış həyata keçirmək üçün ilk dəfə rəsmi lisenziya alıb. Bu, Böyük Britaniyada 1970-ci illərdə həyata keçirilmiş “Black Arrow” proqramından sonra ilk vertikal raket buraxılışı olacaq.

Şirkət gələcəkdə peykləri orbitə çıxarmaq üçün daha böyük raket hazırlamağı da planlaşdırır. Böyük Britaniyanın aviasiya və kosmos naziri Mayk Keyn bu hadisəni ölkənin kosmos sənayesində də mühüm mərhələ adlandırıb.

### Astronomlar: Yer kürəsi daha sürətli fırlanır, avqustun 5-i isə tarixdə ən qısa günlərdən biri olub

Astronomlar bildiriblər ki, hesablamalara görə, avqustun 5-də Yer kürəsinin Günəş günü adi 24 saatdan bir neçə millisaniyə az davam edən ən qısa günlərdən biri olub. Belə ki, 1,25 millisaniyəlik cüzi fərq təbii olaraq görünməsə də, Yerin fırlanmasında dəyişən tendensiyaları öyrənən alimləri cəlb etmək üçün kifayət olub.

Adi 24 saatlıq Günəş günü günortadan günortaya qədər ölçülür ki, bu da 86.400 saniyəyə qədər vaxt əlavə edir.

Bununla belə, alimlər qrupu 2025-ci ildə 24 saatdan daha qısa olan üç tarixi proqnozlaşdırıb. Bunlara 9 iyul, 22 iyul və 5 avqust daxil edilib. Ən qısa gün isə il iyulun 5-də olub və 24 saatlıq göstəricidən 1,66 millisaniyə aşağı düşüb.

“Duncan Carr Agnew” tərəfindən “Nature” nəşrində dərc olunan məqaləyə görə, qlobal istiləşmə bu dəyişikliyə təsir edən amil ola bilər.

### Yaponiyada 16-cı ildir ki, əhalinin sayında azalma müşahidə edilir

2024-cü ildə Yaponiya əhalisinin sayı əvvəlki illə müqayisədə 908 min nəfər azalaraq 120 milyon 653 min 227 nəfərə düşüb.

Artıq ardıcıl 16-cı ildir, bu ölkədə əhalinin sayında azalma müşahidə olunur. Statistika İdarəsinin son izləmə metodu aydın şəkildə göstərir ki, cari ildə Yaponiya əhalisinin sayında 1968-ci ildən bəri ən böyük azalma qeydə alınıb.

Ekspertlər bildirirlər ki, ailə qurmaq istəyən gənclərin sayının azalması sosial gərginliyin artması ilə bağlıdır. Bu, öz növbəsində, doğum nisbətinə də mənfi təsir edir. Belə ki, Yaponiya Səhiyyə, Əmək və Rifah Nazirliyinin məlumatına görə, 2024-cü ildə ölkədə 686 min 61 uşaq dünyaya gəlib. Bu, 2023-cü ildəki göstəricidən 41 min nəfər azdır. 2025-ci ilin birinci yarısında da doğum nisbətinin azalması müşahidə olunur.

# Dekorativ-tətbiqi sənət növü: xalçaçılıq








***Muxtar respublikamızda ömrünü müxtəlif peşələrə bağlamış insanlarla tez-tez görüşür, onların yaradıcılığı haqqında məlumat əldə edib oxucularımızla bölüşürük. Onlardan biri də Ülviyyə Məmmədovadır.***

Ülviyyə xanım uşaqlıq illərindən xalçaçılıq sənətinə bağlanıb. Bu ecazkar sənətin çətinliklərini görsə də, marağı onu bu sahədə uğurlar qazanmağa, saatlarla hana arxasında işləməyə sövq edib. “Atam mərhum Qədirullah Bağırov bu sənətə yiyələnməyimdə mənim dəstəkçim olub. Atam ömrünün 45 ilini rəssamlıq sənətinə həsr etmişdi. Səhhətində yaranan narahatlıqlara baxmayaraq, biz onu daim molbertin önündə görürdük. Ömrünün 20 ildən çoxunu isə xalçaçılıq sənətinə həsr etmişdi. Onlarla portret xalçaların müəllifi idi. Romantik şairimiz Hüseyn Cavidin 100 illiyinə həsr olunmuş xalçanın müəllifidir. Ümummilli Lider Heydər Əliyevin portret xalçası da onun ilhamının məhsuludur. Bir neçə dəfə Mustafa Kamal Atatürkün portret xalçalarını ərsəyə gətirmişdi. Memar Əcəminin portret xalçası da eləcə... Demək olar ki, evimizin divarlarını atamın xalçaları bəzəyirdi”, – deyir Ülviyyə xanım.

Deyir ki, 9 yaşından bu sənətdədir. Qismət elə gətirib ki, o, Naxçıvan Dövlət Xalça Muzeyinə direktor təyin olunub. Bu gün xalçaçı rəssam Kamil Əliyevin adını daşıyan muzeydə onun xalçaçılığa olan marağı rəssamlığa olan marağını üstələyib. Ona görə də özünü xalça sənətində görməyə başlayıb. 2001-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsini fərqlənmə diplomu ilə bitirib.

Öyrəndik ki, Xalça Muzeyində bir neçə xalçanın çeşnisi Ülviyyə Məmmədovaya aiddir: “Bu məni çox qürurlandırır. Ötən il muxtar respublikamızın 100 illik yubileyi təntənəli və yaddaqalan tədbirlərlə qeyd olundu. Biz də yubileyə öz töhfəmizi verdik. “Naxçıvan Muxtar Respublikası – 100” adlı xalçam maraqla qarşılandı. Çeşnisi mənə aid olan və Gülsüm Kəngərli ilə Rübabə Əliyeva tərəfindən toxunan həmin xalçanın Ötən il dekabrın 24-də Bakı şəhərində fəaliyyət göstərən Milli Xalça Muzeyinə təntənəli şəkildə təqdimat mərasimi keçirildi”.

Ülviyyə xanım deyir ki, həmişə al-əlvan rənglərdən istifadə etməyə çalışır. Naxçıvana aid olan xalça rənglərindən də ilhamlanır. İstəyir ki, həmin rəng tonları xalçalarında öz əksini tapsın. Onun sözlərinə görə, Naxçıvanda yun xalçalar daha çox üstünlük təşkil edir. Bununla yanaşı o, çətin ərsəyə gələn ipək xalçalar da toxumağa başlayıb. Qeyd edək ki, ipək xalçalar sifarişlə toxunardı. O xalçalar kiçikölçülü olurdu.

Xalçaçı rəssam deyir ki, çeşnilərində qədim Naxçıvanın xalça naxışlarından istifadə etməyə çalışır. Xüsusən də həndəsi motivlərə daha çox üstünlük verir. Əcəmidən miras qalan naxış elementlərinə daha çox yer ayırır. Doğma məkanımızın rənglərini özündə ehtiva edən Mömünə xatun türbəsinin təbii rənglərinə də üstünlük verir. Bir xalçası da vardır ki, “Tənzərə” yallısını orada əks etdirib. O xalçanı 2019-cu ildə hazırlayıb. Xalçaçı xanımlarımız tərəfindən isə toxunub. Sərgilərdə çox maraqla qarşılanır həmin xalça.

Ülviyyə xanımla hana arxasında söhbət etdikcə muzeydəki bir-birindən dəyərli və gözəl xalçalara da baxırdım. Xalqımızın təfəkkür süzgəcindən süzülən, hər kəsə zövq verən bu sənətin davamçılarının əməyinin çətin olduğunu düşünürdüm. Onların qədim xalçaçılığa bağlılığı isə qəlbimdə xoş duyğular yaradırdı.

Son olaraq qeyd etmək lazımdır ki, tarixi minilliklərə sığan qədim xalça sənətimiz bu gün də yaşadılır. Elə Naxçıvan şəhərində fəaliyyət göstərən muzey bunun bariz ifadəsidir. Bu gün gənclərin də bu sahəyə marağının gündən-günə artması xalçaçılığın sabah da yaşayacağından soraq verir.

**“Şərq qapısı”**





## Naxçıvanlı karateçilər Türkiyədə uğur qazanıblar

Cari il avqustun 1-3-də Türkiyənin Rizə şəhərindəki Yenişehir İdman Salonunda “Karadeniz və Hazar Ülkeleri Karate Şampiyonası” adlı yarış keçirilib. Çempionatda Qaradəniz və Xəzər hövzəsinə aid ölkələrdən 1000-ə yaxın idmançı uşaqlar, ümidlər və gənclər kateqoriyalarında mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikasından yarışda 3 idmançı iştirak edib. Onlardan Fatimə Bağırzadə (10-11 yaş, 50 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub, Xədicə Bayramova (10-11 yaş, 35 kq) isə bürünc medal qazanıb.

## Çempionlar Liqası: *“Qarabağ” səfərdə “Şkendiya”ya qalib gəlib*



UEFA Çempionlar Liqasının III təsnifat mərhələsinin ilk oyunu çərçivəsində səfərdə “Şkendiya” (Şimali Makedoniya) ilə qarşılaşan “Qarabağ” qələbə qazanıb.

“Todor Proeski” stadionunda keçirilən matçda Ağdam təmsilçisi 1:0 hesabı ilə qalib gəlib. Yeganə qol 18-ci dəqiqədə Toral Bayramovun ayağına yazılıb. O, Leandro Andradeya qarşı kobud oyuna görə təyin olunan penaltini qola çevirib.

Qeyd edək ki, tərəflər arasında avqustun 12-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək cavab qarşılaşması saat 20[00]-da başlayacaq. İki görüşün nəticəsinə əsasən qələbə qazanan kollektiv pley-off mərhələsində “Ludogorets” (Bolqarıstan)-“Ferentsvaroş” cütünün qalibi ilə üz-üzə gələcək.

## Elan

Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsi müsabiqə elan edir. Məhəllə sakinləri tərəfindən Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinə ünvanlanmış ərizəyə əsasən sakinlərin müraciətinə uyğun olaraq bələdiyyə tərəfindən Kalbamusa çeşməsində və ətrafında abadlıq işlərinin aparılması, ərazinin işıqlandırılması sakinlərin istirahəti üçün lazımi şəraitin yaradılması məqsədilə müsabiqədə iştirak etmək istəyənlər 10 gün müddətində Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinə müraciət edə bilərlər.

***Ünvan: Kazım Talıblı, ev 20.***

## *İtmişdir*

Culfa rayonu, Dizə kənd sakini Əliyeva Firuzə Həbib qızının adına olan JN-102[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kənd sakini Məmmədova Zəminə Fərman qızının adına olan JN-0041 nömrəli, 10312048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Vəliyev Elçin Müslüm oğlunun adına Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti 80/81, mənzil 115 ünvanında “Şərur MTK” tərəfindən verilmiş müqavilə və maliyyə arayışı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbəsində yaşamış Camalova Rübabə Məmməd qızının adına olan JN-136[A] nömrəli, 10211018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Eminova Şəkər Nağı qızının adına olan JN-236 nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini Hüseynov Cahandar Yunis oğlunun adına olan evin 104013017301-10301 reyestr nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Arbatan kəndində yaşamış Məmmədov Fərman Nurməmməd oğlunun adına verilmiş JN-13[B] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Quliyev Yəhya Novruzəli oğlunun adına olan YMZ-6L, 9B106 dövlət nömrə nişanlı traktorun 036313 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kənd sakini İsmayılova (Nəsirova) Kəmalə Məhəmmədəli qızına məxsus JN-525 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhər sakini Məmmədov Arif Əsədulla oğlunun adına S.Vurğun küçəsində yerləşən fərdi yaşayış evinin 1281 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 209

Nömrəyə məsul: Nail Əsgərov, Bülbül Quliyeva, Türkanə Əsədova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.